

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi"




4

SƏS
№ 237 (7162)
24 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# İlham Əliyev: tarixə ZƏFƏR yazan güclü Lider!




2

*Lideri zaman yetişdirir. Tarixin keşməkeşli dönəmlərindən və sınaqlardan uğurla keçən tarixi şəxsiyyətlər, yaşadıqları zaman üçün həm də ona görə önəmlidirlər ki, öz dövrünün uğurlu salnaməsinə imza atırlar.*

# Sanksiyalar fonunda SİYASİ TUFAN




3

## Yeni il BAZARLIĞI – Süfrənizi neçəyə qura biləcəksiniz?



10

## Qarabağın tacı Şuşa növbəti karvanını qarşıladı



12

## Elektromobillər, yoxsa ənənəvi avtomobillər daha etibarlıdır?



16

## Tanrıya açıq məktub- 3-cü hissə




13

## Dağıdıcı müxalifətin sonu görünür



14

# 21 ilin reallıqları: dinamik inkişaf və ZƏFƏR tariximiz!

*Prezident İlham Əliyev: "Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır"*



***Dövlət siyasətinin müasir modelini yaradan Azərbaycan Prezidenti İlham Əliyevin yüksək idarəçilik məharəti, qətiyyəti və milli maraqlara əsaslanan daxili və xarici siyasəti nəticəsində bütün sferalarda əldə olunan nailiyyətlərin kökündə müdrik siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Ötən 21 illik tariximiz Azərbaycanın böyük bir salnaməsini yaratmış, güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan dövlət kimi öz imicini təsdiqləmişdir.***

Reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat və ən əsası da xalq-iqtidar birliyi Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir. Dövlət başçısı prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində verdiyi vədlərin hamısının yerinə yetirilməsinə nail olmuşdur. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi Cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərkən bildirmişdi: "İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Keçirilən seçkilərində seçicilərin 76 faizdən çoxu Cənab İlham Əliyevin lehinə səs verdi və 2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı seçilməsindən ötən dövr ərizində ölkəmizin qazandığı uğurlar hər bir vətəndaşın diqqətindədir. Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər: "Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Həqiqətən də, belə oldu. Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Ötən iyirmi bir il aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmişdir. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. Əbəs deyil ki, 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində xalqımız Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi.

### ZƏFƏR SEÇKİLƏRİ - YENİ DÖVRÜN BAŞLANĞICI

2024-cü il fevralın 7-də Azərbaycanda şəffaf şəkildə keçirilən növbədənkənar Zəfər seçkiləri ölkənin demokratik inkişaf tarixinə daha bir uğur səhifəsini yazdı. Müstəqillik tariximizdə ilk dəfə olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa edən bütöv Azərbaycanda keçirilən seçkilər hər bir azərbaycanlını qürurlandırdı. Azərbaycan yeni dövrə qədəm qoydu. Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə verilən hər bir vəd, qarşıya qoyulan vəzifələr yerinə yetirildi və təsadüfi deyil ki, Cənab İlham Əliyev 92,12 faiz səslə yenidən prezident seçkilərində qalib gəldi. Yeni dövrün başlanğıcı kimi dəyərləndirilən bu seçkilər ölkəmizin qarşısında yeni imkanlar yaradır. 30 illik torpaq həsrətinə son qoyan tarixi Zəfərimizin, həmçinin ərazi bütövlüyümüzün və suverenliyimizin müəllifi olan Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşən xalq qalib Liderinə səs verməklə bir daha təsdiqlədi ki, xalq-Prezident birliyi, həmrəyliyi sarsılmazdır. Xalqın qalib Liderinə etimadı səsvermənin nəticələrində özünün aydın ifadəsini tapdı. Azərbaycan tarixinin səhifəsinə yazılan 7 fevral ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri müdrik xalqımızın yekdilliyi ilə, həmrəyliyi ilə yeni tariximizə möhrünü vurdu. Xalqımız həmrəylıklə öz tarixi seçimini edərək bir daha inkişafa, tərəqqiyə, sabitliyə, əmin-amanlığa səs verdilər. Bu səs Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasətə verilən səs idi. Bu seçkilər Azərbaycan üçün tam bir demokratik bayram oldu. İlk dəfə seçkilər Azərbaycanın bütün ərazilərində keçirildi. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artıraraq, xalqın güzəranını və rifahını dönmədən yüksəldərək, ərazi bütövlüyümüzü təmin edərək və suverenliyimizə imza ataraq xalqın alternativsiz Liderinə çevrilib. Bu gün Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır. 30 ildən sonra ilk dəfə olaraq ərazi bütövlüyümüz tam təmin edilmiş şəkildə seçki keçirildi və bu seçki bütün ölkə ərazisini əhatə etdi. Keçmiş məcburi köçkünlər yurdlarında seçici olaraq səs verdilər. Bu da daha bir tarixi hadisəyə çevrildi. Əlbəttə ki, Zəfər seçkiləri yeni dövrün başlanğıcıdır. Seçkilərdə qazanılan bu Zəfər Azərbaycan xalqının Prezidentinə inamının, etimadının təzahürüdür.

### "BUNDAN SONRA DA AZƏRBAYCANIN HƏRTƏRƏFLİ İNKİŞAFI, ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN QORUNMASI ÜÇÜN ƏLİMDƏN GƏLƏNİ ƏSİRGƏMƏYƏCƏYƏM"

Cənab İlham Əliyevin növbəti 7 il üçün Prezident seçilməsi öz tarixinin yeni mərhələsinə qədəm qoyan Azərbaycan üçün ən uğurlu başlanğıcdır. Ermənistanla sülhün əldə olunması, azad olunmuş torpaqlara Böyük Qayıdış kimi nəhəng işlər, vəzifələr durur. Xalq məhz gələcək işıqlı taleyini yalnız öz sınanmış Lideri İlham Əliyevə etibar edə bilərdi. Qarşıda Azərbaycanı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yeni nailiyyətlər və yeni qələbələr gözləyir.

Ötən illər ərzində Azərbaycan xalqının təhlükəsizlik və sabitlik şəraitində yaşaması, uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşında məmnunluq yaradır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində yeni dövr üzrə müəyyənləşdirilən hədəfləri mesaj verdi. "Bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm" - deyən Prezident bildirib ki, iyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik" – deyən Prezident diqqətə çatdırıb ki, verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi: "O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".

### REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA YENİ DÖVR

Azərbaycanın uğurlu inkişafının təmin edilməsində və qarşıda duran bütün əsas vəzifələr uğurla icrasının təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. Bütün bu və ya digər göstəricilər və statistik rəqəmlər deməyə əsas verir ki. Azərbaycan böyük bir ikkişaf yolu keçərək nufuzunu yüksəltməyə nail olub. Bu göstəricilər insanların rahatlıq və firavanlığını yüksəldib.

Xarici siyasət daxili siyasətin davamıdır. Xarici siyasətimiz çox aydın, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi. COP29 tədbirinin yüksək təşkilatçılığı, uğuru Azərbaycanın beynəlxalq nüfuzunun daha bir təqdimatı oldu.

Bu günlərdə Azərbaycanın növbəti diplomatik uğuru – D-8 təşkilatına üzvlük ölkəmizin müstəqillik tarixində beynəlxalq diplomatik uğurlar sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yadda qalıb. Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Bu, D-8 yarandığı gündən təşkilatın sıralarının ilk genişlənməsi kimi əlamətdardır. Üç qitəni əhatə edən, 4 trilyon ABŞ dollardan artıq ÜDM-ə malik, 130 milyard ticarət dövriyyəsi həyata keçirən, üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60%-ni təşkil edən (ümumi əhali 1,2 milliardan artıqdır) və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir. Bu, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir.

***Zümrüd BAYRAMOVA***




# Sanksiyalar fonunda SİYASİ TUFAN

*Suriya əhalisi öz arzusuna çatmaq üçün çox "xəyallar" qurub. Xüsusən də, 2016-cı ilin dekabrında Hələbin azad edilməsindən sonra Suriya əhalisinin bir arzusu var idi, bu da ölkələrinin dirçəlişini görməkdən ibarət olub. Amma ABŞ-ın iqtisadi cəhətdən əhəmiyyətli saydığı bölgələri işğal etməsi, işğalçılıq niyyətində olması və amansız sanksiyaları məhz bu "xəyalları" çoxdan məhv edib.*

### Sanksiyaların tətbiqi Suriyada iqtisadiyyatın çökməsinə səbəb oldu

Bir vaxtlar, daha dəqiq desək, 2011-ci ildə məhz Bəşər Əsədin qəddar bir diktator olduğunu, eləcə də suriyalıların azad edilməli olduğunu bəhanə edərək, o zaman ABŞ prezidenti Barak Obama Suriyanın neft sektorunu hədəfə alan sanksiyalar tətbiq etdi. Sözsüz ki, ABŞ prezidenti olmuş Obamanın həmin sanksiyalar tətbiqi Suriyada iqtisadiyyatın çökməsinə səbəb oldu. Avropa İttifaqı və Böyük Britaniya da Amerikanın ardınca eyni addımı atdı. Bu sanksiyalar neftin bütün investisiyalarını, idxalını və ixracını qadağan edirdi. Hətta bununla da yekunlaşmadı və bunun ardınca Qətər, eləcə də Səudiyyə Ərəbistanının başçılıq etdiyi Ərəb Liqasının 22 üzvündən 19-u guya "Suriya xalqı üçün hər hansı əzabın qarşısını almaq üçün" bir sıra sanksiyaları təsdiqlədilər. Bununla da həmin ölkənin, Suriyanın qarşısına bir növ "çəpər çəkildi" və ölkədə "siyasi tufan" formalaşmağa başladı...

Bəli, hansısa bir vaxta qədər Suriya işləyən, böyüyən, orta gəlirli ölkə idi. Həmin ölkə həm enerji, həm də ərzaq baxımından özünü təmin edirdi. Suriyada səhiyyə sistemi də səmərəli idi, təhsil universitetlərə qədər pulsuz idi və qadınlar tam hüquqlardan istifadə edirdilər. Onu da yaxşı xatırlayırıq ki, 2009-cu ildə BVF-nin Direktorlar Şurası Suriyanın son illərdə əldə etdiyi möhkəm makroiqtisadi göstəriciləri alqışlamışdı. Bu da əlbəttə ki, səbəbsiz deyildi, çünki qeyri-neft sektorunun ÜDM-də sürətli artımı, yaxşı səviyyəli xarici ehtiyatlar, aşağı səviyyədə olan dövlət borcları həqiqətən də alqışa layiq sayılırdı. Bu göstəricilər həm güclü regional tələbi, həm də sosializmə meylli bir ölkədə bazar iqtisadiyyatının yüksəldilməsinə yönəlmiş hökumətin islahatlar səylərini əks etdirirdi.

### Məqsəd yenidənqurma səylərini maliyyələşdirməsinin qarşısını almaq imiş

Belə çıxır ki, 2011-ci il "Ərəb baharı" adlandırılan real hərbi əməliyyatlar, silahlıların və Qərb tərəfindən maliyyələşdirilən terrorçu qrupların Qərb maraqları ilə əlaqəli olmayan, həmin maraqlara cavab verməyən hökumətləri məhv etmək ili sayıla bilər. Hətta başlanğıc ili kimi də qeyd olunsa, yanlışlıq olmaz. İddia olunduğu kimi, Suriya Rusiyanın müdaxiləsindən xilas olsuda da, dağılmış da olsa belə, heç bir infrastruktur olmadan və ÜDM-in ən aşağı səviyyələrə düşməsi ilə son dərəcə yoxsullaşma başladısa, deməli, sadalananlarla bağlı heç bir yanlışlıq yoxdur və həqiqətən də "siyasi tufan" artıq Suriya üçün daha ağır nəticələr vəd edirdi, belə də oldu...

Doğrudur, 2019-cu ildə verdiyi müsahibədə Bəşər Əsəd Suriyanın sosial müstəvidə artıq əhəmiyyətli dərəcədə yaxşılaşdığını söyləmişdi. Bəlkə də məqsəd ölkənin imicini və beynəlxalq müstəvidə nüfuzunu qorumaq idi deyə, belə bir mövqe sərgilənmişdi və bu şəkildə ifadə olunmuşdu. Hətta qeyd olunurdu ki, hökumət ordusu bir çox rayonları azad edib, normal həyat bərpa olunub, bütün dinlərin birgə yaşayışı təmin edilib. Təbii ki, bir ölkə rəhbəri öz ölkəsi ilə bağlı bu şəkildə də bəyan etməli idi, əksinin söylənilməsi heç bir məntiqə sığışmır. Əslində, həmin vaxt Türkiyənin dəstəyi ilə "ən-Nusra"nın nəzarətində olan İdlib bölgəsi və şimal-şərqdə ABŞ və onun kürd müttəfiqlərinin silahlı qüvvələrinin yerləşdirildiyi geniş ərazi işğal altında qalmışdı. Amma bununla belə, həmin ölkənin rəhbəri Əsəd müsbət tendensiyaların olduğunu bildirirdi. Hər halda, bunlar səbəbsiz də deyildi...

Doğrudur, Tramp hər zaman bəyan edirdi ki, "Suriyada sonu bəlli olmayan müharibəni sona çatdırmaq" və eləcə də insanları "evə qaytarmaq" üçün kampaniya, "iş" aparır. Lakin onu da bilirik ki, 2019-cu ildə o, Pentaqonun Suriyada Amerika qoşunlarını saxlamaq planının lehinə olub. Rəsmi olaraq bunun, "mübarizə aparmaq üçün" edildiyi qeyd olunurdu, əslində isə neft ehtiyatlarının və ən yaxşı kənd təsərrüfatı torpaqlarının olduğu bölgələrə Suriya və Rusiya qoşunlarının irəliləməsini əngəlləmək üçün edildiyi bəlli olur. Belə məlum olur ki, məqsəd Suriya hökumətini kritik gəlirlərdən məhrum etmək və onun yenidənqurma səylərini maliyyələşdirməsinin qarşısını almaq imiş.

### Cəmiyyət davamlı şəkildə parçalanmağa başlamaqla dövlət dəstəyini də itirdi

Diqqətə çatdıraq ki, elə həmin il, 2019-cu il Tramp administrasiyası "Sezar Qanununu" təqdim etdi. Qanun layihəsi qida, enerji və dərman kimi vacib malların idxalını əngəlləyirdi. Beynəlxalq şirkətlərin məhz məhdudlaşdırıcı tədbirləri nəzərə alaraq, Suriya ilə əməliyyatlar aparmaq imkanlarını təmin etməkdə böyük çətinliklə üzləşmələri heç də təsadüfi deyildi. Bu "çətinliklər" nəticəsində əlbəttə ki, banklar, ixracatçılar, nəqliyyat və sığorta şirkətləri ölkədə bizneslə məşğul olmaqdan imtina etmək məcburiyyətində qaldılar. Sözsüz ki, bu "qanun" layihəsi istənilən yerdə, hətta Suriyanın yenidən qurulmasında işləyən xarici şirkətlərin ayrı-ayrı işçilərinə sanksiyalar tətbiq etməyə "imkan" verirdi.

Heç şübhəsiz ki, bu qeyri-qanuni və motivsiz sanksiyalar paketi geniş yayılmış yoxsulluğa əhəmiyyətli dərəcədə "töhfə" vermis oldu. Milyonlarla vətəndaş ölkədən qaçdı və qalanlar arasında da narazılıq artdı. Suriya yenidənqurma prosesinə başlaya və qeyri-sabitliyə buna görə də son qoya bilmədi. Hökumət də öz növbəsində vergiləri artırmağa məcbur oldu, lakin hətta bu, əsas xidmətlərin göstərilməsinə zəmanət vermək üçün belə kifayət etmədi. Cəmiyyət davamlı şəkildə parçalanmağa başladı və perspektivsizlikdən "yorularaq" dövlət dəstəyini də itirdi.

### Ehtiyatlı davranış məhz hansısa "siyasi tufan" olduğu qənaəti ilə bağlı imiş

Təbii ki, ordunun modernləşdirilməsi özü belə əlçatmaz məqsəd kimi görünürdü. Bununla belə, Rusiya Suriya ordusunda islahatlar aparmağı, silah və texnika ilə təmin etməyi təklif etdikdə, o zaman həmin ölkənin rəhbəri olan Əsəd bu təklifdən imtina etməyi doğru hesab etdi. Əslində, ciddi milli təhlükəsizlik narahatlığı var idi, amma buna baxmayaraq, "imtina etmək" qərarı verildi. Hər halda, Bəşər Əsəd nədənsə "ehtiyat edirdi" və buna görə də guya ehtiyatlı davranmaq istəmişdi. Nəticənin necə olmasından asılı olmayaraq, ən azından, belə bir niyyət ortada olub və görünür, bunun özü də hansısa "siyasi tufan" olduğu qənaəti ilə bağlı imiş.

Bəllidir ki, Suriya Livanda Hizbullah üçün İrana verdiyi mühüm quru dəhlizinə görə Qərbi Asiyada güc mübarizəsinin mərkəzində özünü tapıb. Belə çıxır ki, bu kanalın silah və qoşun tədarükü üçün bağlanması İsrail üçün çox vacib imiş. HƏMAS ilə uzun sürən müharibədən sonra Livan cəbhəsindəki hərbi uğursuzluq İsraili noyabrın 27-də atəşkəslə razılaşmağa məcbur qoyub. O da təsadüfi deyil ki, Netanyahu Əsədi "odla oynamaqda" ittiham edib. Hətta Əsədin sanksiyaların ləğvi və ABŞ qoşunlarının çıxarılması müqabilində İranın Suriya ərazisindən istifadəsini rədd etmək üçün BƏƏ vasitəsilə ABŞ-la danışıqlar apardığı barədə hələ təsdiqlənməmiş xəbər də həqiqət ola bilər.

Ola bilsin ki, 2023-cü ildə Suriya diplomatik səviyyədə irəliyə doğru bir addım atmış kimi görünür. Sentyabr ayında Çin prezidentinin, Si Cinpinin Suriya ilə "strateji tərəfdaşlıq" yaradıldığını elan edərək, ABŞ-ın ərəb-Suriya barışığına mane olmaq cəhdlərinə baxmayaraq, Əsədin legitimliyinə beynəlxalq dəstək nümayiş etdirməsi də diqqəti cəlb edən məqamdır. Hər halda belə bir dəstək nümayiş etdirmək istəyi də təsadüfi sayıla bilməz.

Əslində, mayın 8-də Suriya artıq "Ərəb Liqasına" yenidən qəbul olundu və mayın 19-da Əsəd Səudiyyə Ərəbistanında keçirilən sammitdə də "həvəslə" iştirak etdi. "Böyük ərəb ailəsinə" bu qayıdışdan sonra Əsəd iqtisadi blokadanın yumşaldılmasına və sərmayəyə, eləcə də diplomatik dəstək almağa ümid edirdi. Əsəd döyüş meydanında məğlub olduqdan sonra körfəz ölkələrinin dəstəyini alacağına sadəlövhcəsinə inanırmış. Halbuki onlar 2011-ci ildə Suriyada sabitliyin pozulmasının əsas regional "sponsorları" idilər. Bəlkə də bu cür "perspektivlər" haqqında düşünmək onu hansısa bir xoşagəlməz "sürprizdən" qorxmamağa inandırırdı. Buna görə də İran və Hizbullah Əsəddən Qəzza və Livandakı müqaviməti dəstəkləmək üçün Qolan təpələrində cəbhə açmaq üçün icazə istədikdə o, bundan imtina etmişdi. Əsəd Suriyanı İsraillə açıq qarşıdurmaya sürükləmək və körfəz ölkələri ilə münasibətlərin normallaşdırılması istiqamətində irəliləyişə təhlükə yaratmaq istəməyib. Daha doğrusu, hansısa "tufan" olmaması üçün çalışıb, amma görünür buna nail ola bilməyib

**İnam Hacıyev**

# “Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi”

***Dekabrın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə “Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi” mövzusunda tədbir keçirilib.***

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, zəngin idarəçilik təcrübəsinə, dönməz əqidəyə, xalqın birmənalı dəstəyinə - yüksək etimadına malik lideri olan dövlətlər möhtəşəm nailiyyətlərə imza ataraq adlarını tarixə əbədi həkk etdiriblər. Onun sözlərinə görə, Şərqdə ilk demokratik respublika yaratmış və 33 il əvvəl öz müstəqilliyini bərpa etmiş Azərbaycanın təcrübəsi də bu baxımdan əlamətdardır: “Çağdaş Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları ilə bağlıdır. Heydər Əliyev milli maraqlara əsaslanan uzaqgörən siyasəti ilə Azərbaycanın müstəqilliyinin daimiliyi, dönməzliyi və əbədiliyini təmin etməklə xalqımıza çoxsaylı uğurlar qazandırmışdır. Bu gün iftixarla qeyd edirik ki, hər birimizin sonsuz qürur mənbəyi olan müasir Azərbaycan dövləti Heydər Əliyevin millətimizə ən böyük mənəvi-siyasi mirasıdır”.




Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin Ulu Öndərin tükənməz dövlətçilik irsini müasir çağırışlara uyğun zənginləşdirərək həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilmiş, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilmiş, dünyada etibarlı və konstruktiv tərəfdaş kimi tanınmışdır: “Ən əsası, iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa etməklə Zəfər zirvəsinə yüksəlmişdir. Ata vəsiyyətini və xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirən Prezident İlham Əliyev Azərbaycanı Ulu Öndərimizin görmək istədiyi qalib və qüdrətli dövlətə çevirməklə bərabər, strateji hədəfləri ardıcıl olaraq gerçəkləşdirərək nəinki ölkəmiz, bütövlükdə regionumuz üçün yeni perspektivlər yaratmışdır”.



YAP Sədrinin müavini deyib ki, qazanılan tarixi nailiyyətlərlə yanaşı, qarşımızda gələcəyə yönəlik çox önəmli vəzifələr durur: “Dünyada qlobal kataklizmlərlə müşayiət olunan gərgin geosiyasi proseslərin baş verdiyi, yeni çağırışların meydana çıxdığı bir dönəmdə Azərbaycan Prezidentinin müstəqil və qətiyyətli siyasəti ölkəmizdə ictimai-siyasi sabitliyin və milli birliyin qorunmasına, sosial-iqtisadi inkişafın davam etməsinə, əhalinin rifahının daha da yaxşılaşmasına, Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışın uğurla həyata keçirilməsinə və nəhayət, bölgədə sülh, təhlükəsizlik və çoxşaxəli əməkdaşlığın bərqərar olmasına hədəflənmişdir.

*Ardı Səh. 5*






# “Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi”



Əvvəli-Səh-4

Azərbaycanın bugünlərdə D-8 təşkilatına yekdilliklə üzv seçilməsi də bunun növbəti bariz təzahürüdür. Şübhə yoxdur ki, öz Müzəffər Liderinin ətrafında sıx birləşən xalqımız bundan sonra da milli məqsədlərə nail olaraq daha qüdrətli Azərbaycan naminə yeni qələbələrə imza atacaqdır”.

“Tariximizin bu şanlı dövründə yaşayıb yaratmaq hər bir azərbaycanlı üçün hədsiz xoşbəxtliklə bərabər, həm də böyük məsuliyyətdir. Hər birinizə dövlətimiz və xalqımızın firavan gələcəyi naminə möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə müqəddəs amallara doğru bu şərəfli yolda inam və əzmlə addımlamağı arzulayır, fürsətdən istifadə edərək qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı və fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram. Yaşasın müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə!”, - deyə YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov çıxışında bildirib ki, dövlət idarəçiliyində sözlə əməlin vəhdəti uğurlu inkişafın əsası olmaqla bərabər, həm də sosial sabitliyin möhkəmləndirilməsi, davamlı yüksəlişin təmin edilməsi və vətəndaş cəmiyyətinin bərqərar olması sahəsində mühüm amildir: “Prezident İlham Əliyevin ”Bizim sözümüz imzamız qədər dəyərlidir” fikri Onun verdiyi vədlərin əməli fəaliyyətində öz əksini tapdığını göstərir.

Dövlətimizin başçısının xalqa verdiyi vədləri yerinə yetirməsinin ən parlaq nümunəsi torpaqlarımızın işğaldan azad olunması və üçrəngli bayrağımızın bütün ərazilərimizdə ucaldılmasıdır”.

“Hər bir azərbaycanlının




Prezidenti olacağını vəd edən və ötən müddət ərzində sözünün sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə sübuta yetirən cənab İlham Əliyev xalqın yüksək rəğbət və məhəbbətini qazanıb. Dövlət başçısının Azərbaycanın milli maraqlarını daim və hər yerdə uca tutması xalqımızı Onun ətrafında sıx birləşdirib. Zəfər seçkisində cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsi bunun bariz nümunəsidir, - deyə YAP Veteranlar Şurasının üzvü əlavə edib.

V.Novruzov qeyd edib ki, Prezident İlham Əliyevin söz ilə əməlin vəhdətinə verdiyi önəm ölkənin inkişafında, eləcə də milli maraqların qorunmasında öz əksini tapır: “Bu yanaşma Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə və xalqın rifahının yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyevin ölkəmizə iqtisadi, siyasi və sosial dividendlər qazandırmış daxili və xarici siyasəti qloballaşma dövründə xüsusi önəm kəsb edir. Dövlət başçısının siyasəti Azərbaycanı dünyada sabitlik adasına, geosiyasi inteqrasiya və multikulturalizm mərkəzinə, qlobal tədbir və görüşlərin keçirildiyi təhlükəsiz məkana çevirib”.

“Əminliklə demək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər Azərbaycanın daha da güclənməsinə xidmət edəcək. Yeni Azərbaycan Partiyasının hər bir üzvü də bu amal uğrunda fəal rol oynamalıdır”, - deyə YAP Veteranlar Şurasının üzvü vurğulayıb.

Çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli bildirib ki, tarixi şəxsiyyətlər öz əməlləri ilə xalqların taleyində müstəsna rol oynayırlar: “Belə şəxsiyyətlərdən biri dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi varisi – Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir”.

Onun sözlərinə görə, uzun illər beynəlxalq təşkilatların, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilmədiyi bir şəraitdə Azərbaycan böyük iradə və qətiyyət nümayiş etdirdi: “Prezident İlham Əliyevin uzaqgörən siyasəti və prinsipial mövqeyi nəticəsində Azərbaycan təkcə hərb cəbhəsində deyil, eyni zamanda, diplomatik müstəvidə də tarixi qələbə qazandı. Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən “Dəmir yumruq” əməliyyatı uzun illər işğalda qalan torpaqlarımızın azad olunmasını təmin etdi. Bu, nəinki Azərbaycanın ərazi bütövlüyünün bərpası, həm də beynəlxalq hüququn və tarixi ədalətin təntənəsi oldu”.

G.Gəraybəyli qeyd edib ki, bu gün Azərbaycan hər bir istiqamətdə, o cümlədən təhsil, səhiyyə və gənclərin inkişafı sahəsində davamlı olaraq irəliləyişlər əldə edir: “Ölkəmizdə sağlam, savadlı və milli dəyərlərə sadiq gənclər yetişir ki, bu da cəmiyyətimizin üstün göstəricilərindən biridir. Gənclərin sağlam həyat tərzi keçirmələri, onların fiziki və psixoloji cəhətdən sağlam yetişmələri üçün zəruri addımlar atılmaqdadır”.

Çıxış edən YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva bildirib ki, bu gün Azərbaycan düşünülmüş siyasət sayəsində mühüm nailiyyətlərə imza atır: “Dünyada gedən proseslər və mürəkkəb geosiyasi vəziyyət fonunda əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan uğurla inkişaf edir. Ən önəmli amillərdən biri olan ictimai-siyasi sabitlik qətiyyətlə qorunur”.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri 30 ilə yaxın işğal altında olmuş torpaqlarımızın düşmən tapdağından azad edilməsidir: “Azərbaycan torpaqlarını öz gücü hesabına azad etdi. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsindən əvvəl hər fürsətdə biz dünya ictimaiyyətini işğal faktı, ədalətsizlik, beynəlxalq hüququn pozulması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl olunmaması barədə məlumatlandırmışdıq, lakin onlar təcavüzkarı cəzalandırmaq əvəzinə, ikili standartlara davam etmək yolunu seçdilər. Bütün bunlara rəğmən, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində sonda ədalət zəfər çaldı”.

Ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətindən bəhs edən S.Xasayeva qeyd edib ki, 1993-cü ildə Ulu Öndərin xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə gəlməsindən sonra diqqət yetirilən əsas məsələlərdən biri də məhz gənclər siyasəti idi. Onun sözlərinə görə, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: “Cəmiyyətin dinamik qüvvələrinin, o cümlədən gənclərin enerjisinin ümummilli məqsədlərə yönləndirilməsi üçün sistemli fəaliyyət aparılır. Bu gün ölkəmizdə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən biri gənclərin cəmiyyətin müxtəlif sahələrində yüksək fəallığının təmin olunması və onların milli-mənəvi dəyərlər əsasında, vətənpərvərlik ruhunda tərbiyə edilməsidir. Dövlət başçısı tərəfindən gənclərə göstərilən bu yüksək diqqət Azərbaycanın parlaq gələcəyini inşa edir”.

“Bu gün hər birimiz ölkəmizin ərazi bütövlüyü ilə yanaşı, həm də milli qürurumuzu bərpa edən Liderimiz - Prezident İlham Əliyevə minnətdarıq və bundan sonrakı mərhələdə daha böyük uğurlara çatacağımıza inanırıq”, - deyə S.Xasayeva vurğulayıb. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

## Ceyhun Bayramov Serbiya Prezidenti ilə görüşündə regional təhlükəsizlik məsələlərini müzakirə edib

Dekabrın 23-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Serbiya Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin Prezidenti Aleksandar Vuçiç tərəfindən qəbul edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə olunub, qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyəti vurğulanıb. Görüşdə, ikitərəfli strateji tərəfdaşlıq münasibətləri, eləcə də regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.



Tərəflər Azərbaycan və Serbiya tərəfindən hər zaman qarşılıqlı şəkildə ərazi bütövlüyü və suverenliyə göstərilən davamlı dəstəyin təqdirəlayiq olduğunu bildiriblər.

Ölkəmizi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu ev sahibliyi münasibətilə təbrik edən Prezident Vuçiç COP29 çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşü məmnunluqla xatırlayıb. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər müzakirə edilib.



# 2024-cü il Azərbaycanın idman tarixində

***Azərbaycanın dinamik inkişafı nəticəsində əldə olunan uğurlar onun bütün istiqamətləri üzrə modelini ortaya qoymasına səbəb olmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanan ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara ev sahibliyi etməsi ölkəmizin elmə, təhsilə, mədəniyyətə, idmana və digər sahələrə olan diqqəti ilə yanaşı, bu və ya digər sahələrdə qazanmış olduğu uğur və nailiyyətlərin təsdiqidir.***

Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Prezident İlham Əliyevin dediyi kimi: "İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir". Müasir dövrümüzdə Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu.

"Biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik" – deyən Prezident qeyd edib ki, siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz: "Bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq".

## DÜNYANIN İDMAN İCTİMAİYYƏTİNİN DİQQƏTİNİ ÇƏKƏN AZƏRBAYCAN

Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. "Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm", - deyə Azərbaycan Prezidenti bildirib. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir.

Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Son illərdə dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Bu yarışların Azərbaycanda keçirilməsi bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. Dünyaya əminliklə bəyan etdiyi gücünü, qüdrətini və təhlükəsizlik tədbirlərinə cavabdehliyini göstərib.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub.

## MEDAL SIRALAMASINDA 169 ÖLKƏ ARASINDA 28-Cİ YER

Müasir dövrdə əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası üçün ən kütləvi vasitə idmandır. Paralimpiyaçılarımızın idmana olan sevgisi və yeni zirvələri fəth etmək arzusu minlərlə idmançının həyatına uğur gətirib. Azərbaycanın "Tokio-2020" Yay Paralimpiya Oyunlarında iştirakı və uğur qazanmaları Azərbaycan idman tarixində önəmli yer tutur. İdmanın 22 növü üzrə 529 dəst medal uğrunda keçirilən yarışlarda Azərbaycan millisinin 14 qızıl, 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə 19 medal qazanması böyük nailiyyət oldu və bu Azərbaycanın 25 illik paralimpiya tarixində bu, ən uğurlu Paralimpiya Oyunları kimi tarixləşdi.

Bu il idmançılarımız "Paris-2024" Yay Paralimpiya Oyunlarında uğurla iştirak etdilər. Paris Paralimpiadasında Azərbaycan 7 növdə 18 idmançı ilə təmsil olunurdu. "Paris-2024" Yay Paralimpiya Oyunlarında da idmançılarımız uğur qazanıblar.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri böyük sürətlə həyata keçirilir. Artıq həmin ərazilərdə ilk beynəlxalq turnirlər təşkil olunub. Milli Paralimpiya Komitəsi də Qarabağda Paralimpiya hərəkatının inkişaf etdirilməsini qarşıya məqsəd qoyub. Əsas hədəf bütün Azərbaycanın Paralimpiya hərəkatı ilə əhatə etməkdir. Bütün azad edilmiş şəhərlərin Baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri Baş planlar əsasında aparılır. Burada idman obyektlərinin yaradılması nəzərdə tutulur. Bu sırada Xankəndidə "Qarabağ" stadionu, Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin və s.təməlinin qoyulmasını göstərmək olar.

## "İDMANIN İNKİŞAFI XALQIN SAĞLAMLIĞIDIR VƏ AZƏRBAYCAN XALQI SAĞLAM OLMALIDIR"

Bu ilin yaddaqalan haisələrindən biri də sentyabrın 13-də Bakı şəhər halqasında Formula 1 üzrə dünya çempionatının Azərbaycan Qran-Prisinin keçirilməsi oldu. Avropa Qran-Prisi adlandırılan ilk yarış Azərbaycanda 2016-cı ildə təşkil olunub. "Formula-1" yarışlarının Bakı mərhələsi dünyada böyük maraq doğurub. Bakı bütün iştirakçıları və qonaqları, hər zaman olduğu kimi, növbəti tədbirdə də ev sahibi olaraq yüksək səviyyədə qarşılayaraq, yarışı uğurla yekunlaşdırdı. Bu da paytaxtımız ətrafında kifayət qədər məlumatı dünya ictimaiyyətinə çatdırmış oldu. Belə ki, yarış zamanı qonaqlar İçərişəhər Tarixi-Memarlıq Qoruğunu, şəhərin müasir göydələnlərini və s. görərək, ecazkarlığı seyr edirlər və yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar şəhərimizin gözəlliyini görmək imkanı qazandılar. Növbəti dəfə də Bakı dünya tamaşaçılarına və şəhərimizin qonaqlarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini nümayiş etdirdi. Belə yarışların keçirilməsi, onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Ölkəmizdə mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir.

Bu il üçün maraq doğuran hadisələrdən biri də Avropa Ağırlıqqaldırma Akademiyasının Azərbaycanda qurulması ilə bağlıdır. Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının (IWF) Avropa üzrə Beynəlxalq Tədris Mərkəzinin (BTM) təşkil edilmə hüququnun ölkəmizə verilməsi nailiyyətdir. Bu yalnız federasiyanın deyil, bütövlükdə Azərbaycan idmanının nailiyyətidir. Dünyada cəmi 5 belə Ağırlıqqaldırma Akademiyasından birinin məhz Azərbaycanda qurulması əhəmiyyətlidir. Qitənin 50-dən çox ölkəsinin diqqəti Azərbaycana yönələcək.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulayıb ki, idmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq və bizim gənclərimiz, gənc nəsil sağlam olacaq - həm fiziki cəhətdən, həm mənəvi baxımdan: "Çünki fiziki cəhətdən güclü insan adətən öz gücündən yalnız çətin məqamda istifadə etməlidir. Güclü insanda özünə əminlik var. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Ancaq özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dünyanı rəqəmlər idarə edir?

***Bir çoxlarımız rəqəmlərin uğuruna və ya uğursuzluğuna çox ciddi inanırıq. Bəzilərimiz uğurlu və uğursuz dediyimiz rəqəmlərin mənası barədə o qədər dərin biliyə malik olmasaq da, hər hansı bir rəqəmin həyatımızda önəmli yer tutduğuna şübhə etmirik. Bir çox insan uğurlu və uğursuz rəqəmini də təyin edib. İnandığımız və qorxduğumuz bu rəqəmlər barədə nələri bilirik?***

### Dinlər rəqəmlərin gözü ilə

İncildə yazılır: "O hər kəsi məcbur etdi, kiçik-böyük, zəngin-kasıb, sərbəst və ya kölə, hər kəsin alnına yapışdırıldı, aləm aldadılan ruhları görsün deyə şeytanın rəqəmi yazıldı– 666. İslamda 99 rəqəmi müqəddəs hesab olunur. Çünki Tanrının ərəb dilində 99 adı var. Xristian ənənəsinə görə isə bu ədəd Tanrının birliyinə işarə edən mələkləri ifadə edir. Dinlərə görə 7 qat göy, 7 kainat, 7 qat cənnət, 7 qat cəhənnəm, yerüstü 7 qat, yeraltı 7 qat, 7 əsas rəng, Kəbənin ətrafında 7 dövr, və s. kimi özəlliklər var.

İslam dinində 7 mərtəbə var. Quranın ilk surəsi "Fatihə" 7 ayədir. İslam inanclarına görə yeraltında günahkarların gedəcəyi yeddi cəhənnəm var. Namaz qılarkən alın, iki əl, iki düz, iki ayağın baş barmaqları olmaq üzrə gövdənin yeddi əzasının yerə dəyməsi vacibdir. İslam inanclarına görə ölünün sarındığı kəfən yeddi arşın olmalıdır. Kəbədə Məscidi-hərəm deyilən məscidin yeddi minarəsi var. İslam inanclarına görə qiyamət günü Mədinənin yeddi ayrı qapısı olacaq.

Yəhudilərdə müqəddəs şamdan 7 şamın birləşməsindən əmələ gəlir. Yəhudilər Qamış Bayramı dedikləri bayramda məbədlərdə toplanar, mehrabın ətrafında yeddi dəfə dolanarlar. Hindlilərdə, romalılarda, buddistlərdə də belə bir dini mərasim var. Müqəddəs saydıqları bir obyektin ətrafında yeddi dəfə dolanarlar. Krişna Şüurunda müqəddəs rəqəm 108 hesab edilir. Bu Tanrını əhatə edən 108 mələk deməkdir. Krişnaçıların ibadət zamanı istifadə etdikləri müqəddəs təsbehin 108 muncuğu var.

Xristian dünyasında 13 rəqəmi nəhs rəqəm kimi qəbul edilir. Bu rəqəmin uğursuz hesab edilməsinin səbəbi kimi isə, İsa peyğəmbərə xəyanət edən 13 şagird göstərilir. 13 rəqəminin nəhs hesab edilməsinin daha bir səbəbi də var, xristianlara görə cəhənnəmin 13 mələyi var. Maraqlıdır ki, xristianlar iki fərqli tarixi də uğursuz hesab edirlər. Bu tarixlər 1453 – İstanbulun fəthi, və 571- Məhəmməd peyğəmbərin doğum tarixi. Səbəbi isə hər iki tarixin rəqəmlərini ayrı-ayrılıqda ardıcıl toplayanda nəhs rəqəm hesab edilən 13 əmələ gəlir.

1453 = 1+4+5+3=13.

517 = 5+1+7=13

### Şeytanın rəqəmi- 666

Elə rəqəmlər də var ki, ellliklə ondan çəkinirik. Bu, "şeytan rəqəmi" dediyimiz tip rəqəmlərdir. Üç altının birləşməsinin yaratdığı 666 rəqəmi bir çoxlarının kabusudur. Bu rəqəm bir çox cəmiyyətlərdə "şeytan rəqəmi" kimi tanınır. Bu rəqəm haqqında bir çox inanclar var. Elmdə də 666 rəqəmi əks olunub. Həyatın qaynağı sayılan karbon atomlarının tərkibi belədir: 6 proton, 6 neytron, 6 elektron. Yəni 6-6-6.

İyun ayının 6-sı 2006-cı il, yəni 06.06.06 tarixi. Bu tarix bütün dünyada qorxu ilə qarşılandı. Xristian dünyasında bu tarixdə uşaq dünyaya gətirmək istəməyən qadınlar doğuşu ləngitmək üçün əllərindən gələni edirdilər. Onların inancına görə, bu tarixdə dünyaya gələn uşaq bədbəxt və şeytan ruhlu ola bilər. Bu inanca dünya şöhrətli siyasətçilər belə inanır. Amerika Birləşmiş Ştatlarının eks-prezidentlərindən biri- Ronald Reyqan evinin nömrəsinin 666 olmasından çox narahat idi, ona görə bu nömrənin 668-lə əvəzləndirilməsi üçün müraciət edir və nömrə dəyişdirilir.



### 9 rəqəmi mütləqiyyət deməkdir

9 rəqəmi isə mütləqiyyətin simvolu kimi xarakterizə edilir. Bir çox inanclarda bu rəqəm ölümü və yenidən doğuluşu ifadə edir. Bunun səbəbi kimi də 9-dan sonra gələn 10 rəqəminin 1 və 0-ın təkrarlanması kimi göstərilir. Hesab edilir ki, 10 yeni nəsə demək deyil, artıq hesablanmış iki rəqəmin birləşməsidir. Bilirsinizmi, biz anamızın bətnində dəqiq olaraq nə qədər yaşayırıq? Əksəriyyət bunu 9 ay kimi bilir. Amma 9 ayın sonrası da var. Dünyaya normal yollarla gələn hər bir insan anasının bətnində 9 ay, 9 gün, 9 saat yaşayır. Yaşlı nəslin nümayəndələri bu sayın sonuna 9 dəqiqəni də əlavə edirlər. Çox maraqlı saydır, elə deyil?

Türk mifologiyasına görə, dünyanı yaradan Qara Xan, dünyanın tam mərkəzinə 9 budaqlı şam ağacı əkmişdi. Altaylara görə isə, insanın skeletində; baş, bel, diz, topuq, bilək, çiyin, dirsək, ovuc və ayaq biləyi olmaqla 9 adda əlavə var. Yaqutlara görə 9 Göy Tanrısı var. Altay türklərinin qiyaməti təsvir edən bir rəsmlərində dənizin dibində 9 ucluqlu bir qara daş var. Onların inancına görə, qiyamət günü bu daş 9 yerindən ayrılacaq, tünd sarı rəngdə dəmir atlara minmiş 9 döyüşçü ətrafa hücum edəcək. Dədə Qorqud dastanında da Dəli Domrul doğulanda atası 9 buğa yenir.

Dünyanın ən böyük alimlərindən biri Nikola Tesla deyirdi ki, kainatın sirri 3,6,9 rəqəmlərində gizlənir. Bu rəqəmlərin xüsusi energetikası var və kainatda çox şeyin formalaşmasında iştirak edir.Tesla üçün bu, "enerji, tezlik və vibrasiya"dır.

Rəqəmlərin yaratdığı maraqlı təsadüflərdən biri də böyük öndər Atatürkün həyatında ortaya çıxır. Atatürk 1981-ci ildə 19-cu yüzilliyin bitməsinə 19 il qalmış doğulub. 1900-ci ildə 19 yaşında hərbi məktəbə daxil olub. 19 May 1919-cu ildə Samsuna getmişdi və mindiyi gəmidə yalnız 19 sərnişin vardı. 19 il türk millətinin taleyini həll edib. Adı və soyadı- "Mustafa Kamal Atatürk" birləşməsi 19 hərfdir. 10 Noyabr 1938-ci ildə saat 9-da dünyasını dəyişib. 10 noyabr+ saat 9 = yenə 19. Atatürk vəfat edərkən 57 yaşında olub. 57 rəqəmi üç 19-un toplamından əmələ gəlir.

### Türklərin müqəddəs rəqəmi - 7

Körpəliyimizdən bu yana nənələrimizdən dinlədiyimiz nağıllarda həmişə bu rəqəm bizə sehirli görünüb. "7 qardaş 1 bacının nağılı", "7 divin nağılı", "7 qu quşu əfsanəsi" və s. kimi nağılları çox dinləmişik. Həm şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatımızda bu rəqəm barəsində çox danışılır. Eyni zamanda mifologiyada da bu rəqəmin qutsallığı vurğulanır. Maraqlıdır ki, həftənin də 7 günü var. Göy qurşağı 7 rəngdən barətdir.

Şaman inanclarına görə Tanrı Ülgən insanlara yaxşılıq edən uca bir varlıqdır. Onun qatına gedən yolda yeddi manеə var. Şamanlara görə Tanrı Ülgən yer üzündə ilk olaraq yeddi kişi yaradıb. Onların inanclarına görə tufanın olacağını əvvəldən bildirən dəmir buynuzlu Göy təkə dünyanın ətrafını yeddi dəfə gəzmişdi. Sonra yeddi gün zəlzələ olmuş, yeddi gün dağlar atəş püskürmüşdü, yeddi gün yağış yağmış, yeddi gün fırtına olmuş dolu düşmüş, yeddi gün də qar yağmışdı.

Yeniçərilərdə yeddi qapı var. Adət qapısı, Ət qapısı, Ağa bölüyü qapısı, Solaxaylar qapısı, Meydan qapısı, Çayır qapısı, Qara kənd qapısı. İstanbulda Topqapı Sarayının yeddi böyük qapısı var. Müqəddəs Novruz bayramımızda gözəl adətlərimiz var. Bu adətlərdən biri də bayram axşamı süfrəyə 7 rəngdə boyanmış yumurta qoyulur. Sonuncu çərşənbə günü süfrədə ən az 7 cür nemət olmalıdır.

### Dünyadakı sirli 7- lər

Həftə 7 gun, göyqurşağı 7 rəng, dünyanın 7 möcüzəsi, doğmalıq bildirən 7 nəsil, insan 7 çakralı, notların sayı 7, İslam dininə görə kainat 7 mərhələdə yaradıldı, Kəbənin ətrafı 7 dəfə dövr edilir, yəhudilərdə Müqəddəs Şamdan 7 Şamlıdır, qədim yunan adətlərində 7 ağıllı ağsaqqal varmış, yunan mifalogiyasına görə 7 əsas tanrıça varmış, Misirdə günəş tanrıçası Ra 7 ruhludur, Cində müqəddəs 7 element varmış, Fenq-şuidə münasibət forması 7, Afrikalıların Kvanza bayramı 7 simvolludur, üzümüzdə 7 dəlik var- agız, qulaqlar, burun deşikləri, gozlər, yaponlara görə 7 rəqəmi uğurludur, atmosferin 7 qatı var, yerin də 7 qatı olduğu güman olunur. Qədim biliklərdə insanın 7 bədəndən ibarət olduğu qeyd olunur - bu, müasir elm tərəfindən də qəbul olunur.

"Kainat rəqəmlərdən ibarətdir" deyən Pifaqordan bu yana bütün insanlar həmişə rəqəmlərin özəlliyinə inanıb. Texnoloji inkişafda yeni dövrün- rəqəmsal eranın başlanğıcı isə daha geniş söhbətin mövzusudur. Müqəddəs kitablardakı müqəddəs rəqəmlər də bu sıraya daxil edilə bilər. Ümumiyyətlə, insan uğurlu və uğursuz rəqəmlərə həmişə inanır. Gerçək olan yalnız bir şeydir- Tanrı heç bir şeyi təsadüf etməyib. Bütün təsadüflərin tarixçəsi onun zəruriliyini əks etdirir.

***Lalə Mehralı***

ARAŞDIRMA

---



Lalə Mehralı

# "Guya", "sanki", "...mış"

***Əksəriyyətin yoluxduğu, sağalmaz xəstəlikdir əslində bu – təqlid etmək. Əslində əzəldən bəri vardı, hətta bu vəziyyəti ifadə edən atalar sözləri də var – qonşu qonşuya baxar, canını oda yaxar. Amma sosial şəbəkələrin həyatımıza pərçimlənməsindən sonra bu vəziyyət daha da yayıldı. İndi hamı birbirinin etdiyini təkrarlayır, hamı başqasının etdiyini etməyə çalışır.***

İnsanlar bu təqlid prosesində, bu oxşama yarışında bir şeyi unudurlar – özlərini. Bizim hər birimiz özəlik, xüsusiyik, məxsusiyik. Hər birimizin özümüzə məxsus enerjimiz, auramız var. Hər gördüyümüzü təqlid edərək, başqalarının həyatını yaşamağa çalışaraq o enerjini pozuruq, auramızı zəhərləyirik, fərqində deyilik. İnsanlar olmadığı kimi görünməyə çalışır, bunun fonunda da öz orijinallığını pozur.

Psixologiya elmi daima başqasını təqlid edən insanlara "ağır şəxsiyyət pozuqluğu" diaqnozunu qoyur. Təxminən 50 ildir elmə məlum olan bu diaqnoz el dilində "başqasıymış kimi yaşamaq", "özünü olmadığın biri kimi göstərmək" olaraq ifadə edilir. Bu cür insanlar elə yaşayırlar ki, həyatları "sanki", "guya", "...mış" effekti verir. Virtual məkanda elə davranır ki, sanki real həyatda da belədir, sosial platformalardakı həyatını elə yaşayır ki, guya elə əvvəldən belə olub, xoşbəxtmiş kimi görünür, əzəldən elə bu cürmüş kimi tanıdır özünü. Bir sözlə, bütün fəaliyyətini, bütün həyatını olmadığı biri kimi olmaq üstündə qurur, başqalarını təqlid edir, bənzəməyə çalışır, bəzən də özünə rol yazır, rol oynayır.

Düşünün, real həyatda tanıdığınız insanların virtual platformalardakı vəziyyətini. İkisi də eynidirmi? Yaxud da, sosial şəbəkələrdən tanıdığınız insanları real həyatda, ən təbii halında görəndə heç təəccübləndiyiniz olubmu? Ehtimal ki, olub. İnsanlar göründüyü kimi deyillər, əksəriyyət bənzəmək istədiyi, arzusunda olmaq istədiyi birini təqlid edir, olmadığı biri kimi görünməyə çalışır. Kameranın işıqları yananda maskalarını taxırlar, sönəndə maskaları da düşür. İnternet fenomenlərinin diqtə etdiyi həyatı yaşayan, xoşbəxt kimi görünən, amma maskasının altından bədbəxtlik süzülən minlərlə insan var virtual platformalarda.

Özünü danan, əslini danan adamların sayı artır. Şəxsiyyətini dəyişməyə, bu dəyişikliyin fonunda ikili həyat yaşamağa marağı artan insanlar çoxalır. Hər şeyini publik edən, publikaya oynayan adamlardan ibarət cəmiyyət yaranıb. İnsanlar sosial şəbəkədə gördüyü hər hərəkəti, hər trendi təqlid edirlər, nə ehtiva etdiyini düşünmədən, nələrə yol açacağını hesaba qatmadan. Həyatına həsəd aparılan fenomenlərin, geyindiklərinə qibtə edilən influnserlərin, gəzdiyi yerlərə heyrətlə baxılan məşhurların həyatını yaşamağa can istənilən şeyə hazır kütlə yetişib.

Təhlükəli burasıdır ki, uşaqlar bu təqlidetməyə qarşında çox aktivdirlər. Bütün trendləri əzbər bilirlər, yamsılamaq təbiətlərində olduğu üçün bu onları cəlb edir. Gördüklərini etməyə həvəslidirlər, baxdıqları zərərli olarsa (əksər hallarda elə belə də olur) nələrə yol açacağını təxmin etmək o qədər də çətin deyil. Təhlükəli davranışları özündə ehtiva edən kontentlərə baxa bilirlər, markaların, brendlərin təlesinə düşə bilirlər, özlərini olmadıqları kimi tanıda bilirlər.

Bütün "sanki"lərdən, "guya"lardan, "mış"lardan ayrı həyat qurmaq lazımdır, özümüzə məxsus, orijinal, xüsusi. Bizi biz olmaqdan uzaqlaşdırmayan, şəxsiyyətimizi dəyişməyən, ikili yaşam diqtə etməyən həyat. İnsanın daxili nədirsə, xarici də odur. Olmadığı birinə çevrilmək həvəsi şəxsiyyət haçalanmasıdır, yolayrıcıdır. Əsas olan insanların səni necə gördüyü deyil, özünü necə gördüyündür. Publikaya hesablanmış həyat tərzi saxtakarlıqdan başqa bir şey deyil.






# İlham Əliyev: tarixə ZƏFƏR yazan güclü Lider!

***Liderі zaman yetişdirir. Tarixin keşməkeşli dönəmlərindən və sınaqlardan uğurla keçən tarixi şəxsiyyətlər, yaşadıqları zaman üçün həm də ona görə önəmlidirlər ki, öz dövrünün uğurlu səlnaməsinə imza atırlar. Öz xalqları üçün, təmsil etdikləri ölkənin milli maraqları üçün misilsiz işlər görən belə insanlar daima tarixin qızıl salnaməsi kimi xatırlanırlar. Bu gün Cənab İlham Əliyev Azərbaycan tarixinə təkcə misilsiz inkişaf və nüfuzlu dövlət qurucusu kimi deyil, ən ümdəsi 30 illik erməni işğalına son qoyan və Azərbaycanın ərazi bütövlüyünü təmin edən, əzəmətli Azərbaycan bayrağını Xankəndidə, Şuşada dalğalandıran Zəfər Sərkərdəsi kimi daxil oldu.***

Hələ 2003-cü ildə Ulu Öndərin siyasi varisi olaraq, məhz onun xeyir-duası ilə 2003-cü il oktyabrın 15-də keçirilən Prezident seçkilərində xalqın böyük etimadını qazanan Cənab İlham Əliyev 21 illik zaman müstəvisində Azərbaycan üçün misilsiz uğurlara imza atıb. Məhz 2003-cü ilin 15 oktyabr tarixi Azərbaycanda yeni bir epoxanın başlandığı tarixdir. Bəli, o zaman qədibilən Azərbayan xalqı prezident seçkilərində Ümummilli Lider Heydər Əliyevin siyasi varisi, respublikanın Baş naziri İlham Əliyevə tam etimad göstərərək onu özünə dövlət başçısı seçdi. Bu tarixdən başlayaraq Azərbaycanda yeni bir era başladı- inkişaf və yüksəliş erası.

Dünyanın ictimai-siyasi reallığı qüdrətli və böyük dövlətlərin liderlərinin daha çox nüfuza malik olduğunu daim sübuta yetirib. Daha doğrusu, kiçik dövlətlərin liderləri çox nadir hallarda dünya səviyyəsində tanınan, nüfuza malik olan şəxsiyyət olurlar. Ancaq nəzərə alsaq ki, dünya xəritəsinin ən mühüm nöqtələrinin birində Azərbaycan adlı ölkə var və bu ölkə ölçülərinə görə digər ölkələrdən kiçikdir, buna baxmayaraq onun siyasi düzəndəki yeri və rolu olduqca əhəmiyyətlidir. Bu əhəmiyyəti isə bəşəriyyətə sübut edən, əməli şəkildə isbatlayan Lider faktoru mövcuddur – Ümummilli Lider Heydər Əliyevdən Milli Lider İlham Əliyevə ötürülən siyasi kurs reallığı! Bu iki tarixi paralelliyin təməlində ən vacib və bir-birini tamamlayan mühüm məqamlar dayanır: xilas və tərəqqi. Ulu Öndər Heydər Əliyev Azərbaycanı daxili və xarici düşmənlərdən qorudu, xilaskarlıq missiyası ilə müstəqilliyimizi bərpa etdi, iqtisadiyyatımızın təməlini qoydu, İlham Əliyev bu siyasi kursun davamını həyata keçirərək Azərbaycanı dünyanın ən aparıcı mərkəzinə çevirdi, inkişaf etdirdi və nəhayət – Qalib dövlət kimi adını tarixə yazdırdı! İlham Əliyev əməlləri ilə göstərdi ki, dövlətin kiçik və ya böyük olmasının onun liderinin beynəlxalq aləmdə nüfuz və hörmət sahibi olmasına heç də təsir göstərmir, güclü Lider kiçik ölkəyə rəhbərlik etməsi ilə onu böyük dövlətlərin sırasında nüfuz sırasına daxil edir!



*Bəhruz Quliyev, "SƏS" qəzetinin baş redaktoru, Fəlsəfə üzrə fəlsəfə doktoru*

### Müstəqil siyasət, qarşıda dayanan çətin yol...

Hər birimizə kifayət qədər bəllidir ki, Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanın sürətli inkişafı və qüdrətlənməsi üçün xüsusi strategiya işləyib hazırlamışdı. Amma onun bu işi başa çatdırmasına fiziki baxımdan vaxt kifayət etmədi. Lakin bu işi davam etdirmək, uğurla başa çatdırmaq üçün onun siyasi varisi olmalıydı. Belə varis isə onun ailəsində yetişmiş, məhz onun məktəbini keçmiş, praqmatik düşüncəli, dərin zəkalı, uzaqgörən, ekstremal vəziyyətdə ən düzgün qərarlar verə bilən İlham Əliyev idi!

2003-cü ildən etibarən xalqın qətiyyətli iradəsi sayəsində dövlət başçısı seçilən İlham Əliyev qısa müddətdə özünün idarəçilik, ölkəyə, xalqa rəhbərlik xüsusiyyətlərinin də mükəmməl olduğunu isbat edərək xalqın tam və qəti etimadını qazandı. Çox qısa müddətdə o, Ulu Öndər Heydər Əliyevin tarixi "Mən ona özüm qədər inanıram" fikir və düşüncələrini əməlləri ilə təsdiq etdi və Azərbaycanda yeni bir dövrün, eranın başlanğıcının təməli qoyuldu. Prezident kimi fəaliyyətinin ilk illəri əlbəttə, çox çətin idi. Qarşıda yarımçıq qalan işlərin davam etdirilməsinə ehtiyac duyulan, ərazisinin 20 faizinin işğal altında olan, qaçqın və məcburi köçkünlərin problemləri, ordusunun gücləndirilməsinə zərurət olan bir ölkəyə rəhbərlik etmək əsla asan deyildi. Bütün bu və digər problemlər süərtlə, gecə və gündüz bilinmədən həll edilməli idi. Ancaq daha bir fakt bu idi ki, qarşıda dayanan vəzifələri icra etmək üçün ilk növbədə güclü iqtisadiyyata malik olmaq, digər dövlətlərdən fərqli olaraq, müstəqil qərar qəbul etmək, yeri gələndə milli maraqlar naminə sərt addımlar atmaq zəruri idi.

Söz yox ki, Azərbaycanın iqtisadi inkişafının əsasını Ulu Öndər Heydər Əliyev öz mükəmməl strategiyası ilə, xüsusilə neft və s. enerji resursları vasitəsi ilə müəyyən etmişdi. Lakin bu işlərin reallaşdırılması nəhəng maliyyə imkanları, xeyli vaxt və enerji, həmçinin praqmatik düşüncə tələb edirdi. Eyni zamanda, xarici investorların daha çox bu kimi işlərə cəlb edilməsi üçün ardıcıl fəaliyyət planını həyata keçirmək qarşıya əsas məqsəd kimi qoyulmuşdu. O cümlədən, nəzərə alsaq ki, İlham Əliyev həm də özünün də dəfələrlə vurğuladığı kimi - yalnız siyasi deyil, eyni zamanda biznes mühitində formalaşıb, bu zaman bütün bunları özündə birləşdirən qətiyyətli və uzaqgörən liderə ehtiyacın yaranması amili də özünü daha çox göstərirdi - İlham Əliyev məhz belə bir anda, məhz belə keyfiyyətlərlə öz sözünü əməli şəkildə təsdiq etməyə başladı.

Gənc Lider çətinlikdən, əziyyətdən qorxmadı, qarşıya çıxan bütün baryerləri və sədləri aşmağı bacardı, öndə dayanan, hər an dövlətimizin başının üstünü qara buludlar kimi almağa hazır olan təhlükə tendensiyalarını ram etdi və çəkilən bu zəhmətlər, əziyyətlər qısa müddətdə zəhmət öz bəhrəsini verdi.

### İslahatlar və yeni mərhələ...

İlham Əliyev bəyan etmişdi ki, güclü dövlət üçün güclü iqtisadiyyat lazımdır. Çünki ölkənin bütün sahələrinin inkişafı iqtisadiyyatın bazasında mümkün ola bilər. Ona görə də, prezidentliyinin ilk illərində o, əsas gücü iqtisadi inkişafa tərəf yönəltdi. Həyata keçirilən ardıcıl iqtisadi proqramlar, kiçik, orta və böyük sahibkarlığa dövlət dəstəyi, investisiyaların cəlb edilməsi nəticəsində ölkənin ümumdaxili məhsulu artmağa başladı. Bunun nəticəsi olaraq, dövlət büdcəsinin gəlirləri çoxaldı, ticarət və maliyyə dövriyyəsinin həcmi durmadan artdı, əhalinin məşğulluq səviyyəsi yüksəldi. Əsasən, çoxminli iş yerlərinin açılması üçün münbit şərait yaradıldı. Bu isə öz növbəsində tikinti, bərpa və quruculuq işlərinin sürətlənməsinə, şəhər və kəndlərin abadlaşmasına, nəqliyyat və kommunal infrastrukturların yenilənməsinə, nəhəng layihələrin icrasına olduqca geniş imkanlar yaratdı.

Qeyd edilənlərlə yanaşı, Azərbaycanda daha əvvəllər mövcud olan qeyri-sabit biznes mühitində köklü islahatlara başlanıldı, bu mühit sağlamlaşdırıldı, hökumətdə kadr islahatları aparıldı, vergi yükü azaldıldı, kiçik və orta biznesə dəstək artırıldı.

Bütün bu işlər əlbəttə ki, dünyanın aparıcı iqtisadi və biznes mərkəzlərinin diqqətindən kənarda qalmadı. Bu mərkəzlər Azərbaycan Liderinin həyata keçirdiyi möhtəşəm siyasətini heyranlıqla izləyirdilər. Artıq bir sıra nəhəng korporasiyalar, şirkətlər, sənaye nəhəngləri Azərbaycanla iş birliyi qurmağa can atırdılar. Məhz bunun nəticəsi olaraq ölkəmizdə xarici investisiyalar artmağa başladı. Təsadüfi deyil ki, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası "Doing Business" öz hesabatında Azərbaycanı 2008-ci ilin ən islahatçı ölkəsi elan etdi. Bu Korporasiya gələcəkdəki illərdə də Prezident İlham Əliyevin iqtisadi islahatlarını əks etdirən yüksək dəyərli hesabatlarını yayaraq əsl reallığı dünyaya göstərdi. Artıq fakt bu idi ki, yeni Prezident cəmi bir neçə ildə yeni ölkə qurdu, yeni islahat və siyasət məktəbi yaratdı!



*Artıq bu gün də xalqımız Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin ətrafında sıx yumruq kimi birləşib ümumi düşmənə qarşı müxtəlif cəbhələrdə döyüşür- həm hərb meydanında, həm siyasi-diplomatik, həm informasiya müharibəsində, həm kibermüharibədə və s. Bu reallıq hər prezidentə qismət olası tale də deyil.*

Həmin ilkin uğurları sadalayaq:

Regional və beynəlxalq iqtisadi layihələr, xüsusən enerji və nəqliyyat layihələri uğurla işləməyə başladı.

Müxtəlif ölkələrlə iqtisadi, ticari, hərbi, siyasi, elmi-texniki, mədəni əməkdaşlıq xeyli artdı.

Beynəlxaql təşkilatlarda mövqelərimiz gücləndi.

Cəmi 10 ildə (!) ölkənin siması tamamilə dəyişdi. Azərbaycanın çox böyük iqtisadi və maliyyə imkanları yaradıldı, ölkəmiz abad və müasir məkana çevrildi, qüdrətli ordu formalaşdı, sosial rifah artdı.

## Bakı dünyanın güc mərkəzlərinin danışıqlar platformasına çevrildi

Beləliklə, güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü. Məhz bu səbəbdən son illərdə neft qiymətlərinin kəskin azalması və qlobal iqtisadi böhran nəticəsində yaranmış kəsiri qeyri-neft sektorunun inkişafı kompensasiya etdi. Ölkəmizin makroiqtisadi göstəricilərinin yüksəkliyi də beynəlxalq nüfuzumuzun möhkəmlənməsinə təsir edir. Beynəlxalq təşkilatların hesabat və proqnozlarına görə, Azərbaycan MBD-də və dünyada ən inkişafda olan ölkələrdən biridir. O da təsadüfi deyil ki, Dünya Bankının “Doing Business 2020” hesabatına əsasən Azərbaycan 20 ən islahatçı ölkə sırasına daxil oldu. Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında isə ölkəmiz hökumətin uzunmüddətli strategiyası üzrə daim ön yerlərdə lidelrik funksiyasını qoruyaraq saxlaya bilib.

## Xalqına sosial rifah bəxş edən müdrik rəhbər

Daha bir əhəmiyyətli məqamı qeyd edə bilərik. Azərbaycanda iqtisadi yüksəliş təmin edildikdən sonra sosial sahədə də əsl inqilab baş verdi. Xalqımızın sosial rifahının artırılması üçün çoxsaylı islahatlar, proqramlar həyata keçirildi. Son illərdə ölkədə 2 milyondan çox yeni iş yeri açılıb, yoxsulluğun səviyyəsi azaldılıb, aztəminatlı kateqoriyaların sosial müdafiəsi daha da gücləndirilib. Bu müddətdə müharibə əlilləri, şəhid ailələri üçün onlarla yeni şəhərcik, minlərlə bina tikilib, yüz minlərlə vətəndaş mənzillə təmin olunub. Dövlət başçısının “Sağlam cəmiyyət güclü dövlət deməkdir” prinsipi ilə həyata keçirdiyi siyasət artıq öz bəhrələrini verib. İlham Əliyevin xalqımıza verdiyi söz müasir Azərbaycanın inkişafına, tərəqqisinə yönələn fəaliyyətin konsepsiyasına çevrilib. “Bizim siyasətimizin əsasında vətəndaş amili dayanır” deyən ölkə başçısı öz sosial islahatları ilə vətəndaşların rifahını və sağlam şəraitdə yaşamasını təmin edir. Koronavirus epidemiyası dünya ölkələrini çətin vəziyyətə salanda Azərbaycan dövləti vətəndaşlarını qorumaq üçün kompleks proqram həyata keçirdi. Bütün beynəlxalq təşkilatlar da Azərbaycanın qlobal pandemiya dövründə özünü nümunəvi ölkə kimi təsdiqlədiyini etiraf etdilər.

Və ən əsası - bu gün həm Birinci, həm də İkinci Qarabağ müharibələrində əlil olanlara, şəhid ailələrinə xüsusi diqqət və qayğı göstərilir, dövlət əlində olan maksimum imkanların bu kateqoriyadan olan insanlarımız üçün istifadə edir.

44 günlük Vətən müharibəsində əldə edilən Zəfərimizdən sonra işğaldan azad edilmiş torpaqlarımızda nəhəng tikinti-quruculuq işlərinə start verilib, layihələr həyata keçirilir. Bu təbii ki, ayrıca mövzudur və onun haqqında da geniş bəhs edəcəyik...

## Mahir və bacarıqlı STRATEQ!

Öz fəaliyyəti ilə regionun və dünyanın nüfuzlu liderlərindən birinə çevrilən İlham Əliyev bu statusu həm daxili, həm xarici siyasəti sayəsində qazandı. Qısa müddətdə rəhbərlik etdiyi ölkəni sürətli inkişaf modelinə çevirən, demokratik dövlət quruculuğu və sosial-mədəni institutların təqdiralayiq fəaliyyəti ilə dünyada tanıdan, beynəlxalq dialoqlar və yarışlar məkanına çevirən bir liderin dünyadakı böyük nüfuzu təəccüblü görünə bilməz. Elə bu ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının tərəfdaş dövlətlərinin 50 prezidenti, 10 vitse-prezidenti, 20 hökumət başçısı və iki vəliəhd şahzadəsi COP29 çərçivəsində müzakirələr qatılması şəxsən İlham Əliyevin nüfuz və etimad gğstəricisidir. Azərbaycan Prezidentinin sülhsevər və xeyirxah siyasətinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsi faktlarının sayı çoxdur. İlham Əliyev dəfələrlə beynəlxalq təşkilatlar tərəfindən “İlin adamı” elan olunub, ona müxtəlif ölkələrin ali mükafatları təqdim olunub, müxtəlif sorğularda lider seçilib.

## Prezidentlikdən Milli Liderliyə gedən şərəfi yol

Dövlət başçısının apardığı siyasət nəticəsində ölkədə multikultural ənənələrə və milli-mənəvi dəyərlərə söykənən bir cəmiyyətin formalaşması təmin edilib, bütün ictimai institutlar, ziyalılar Azərbaycançılıq ideologiyası ətrafında birləşərək ümumi maraq və mənafelər uğrunda çalışmağa başlayıb. İlham Əliyev daim vurğulayır ki, insan hüquq və azadlıqlarının, o cümlədən, söz və fikir azadlığının müdafiəsi Azərbaycan dövlətinin ali məqsədi və fəaliyyətinin ən mühüm istiqamətlərindən biridir. Dövlətimizin humanizm siyasətini yüksək dəyərləndirən xalqımız mütamadi olaraq imzalanan əfv fərmanlarını təqdir edir. Onun çıxışlarında bu fikir hər zaman qeyd olunur ki, Azərbaycan dövləti siyasətində insan amilinə yüksək dəyər verir.

Bütün bunlar isə ölkəmizdə ictimai-siyasi sabitliyə rəvac verir. Məhz bu səbəbdən də vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi sahəsində ciddi nəticələr əldə olunur. Ölkəmizin milli-mənəvi dəyərlər üzərində inkişaf etməsinin, Azərbaycançılığın dövlət siyasətinin əsas prinsipi olduğunu deyən Milli Lider multikultural bir ölkədə yaşayan bütün insanları məhz bu vahid platformada-Azərbaycançılıq ideologiyası ətrafında birləşdirib. Vətəndaşlar da məhz bu səbəbdən öz Liderinin, öz dövlətinin arxasında dayanır. Beləcə xalq-lider-dövlət birliyi həm ölkənin gücünü artırır, həm də Azərbaycanın gələcəyi üçün daha gözəl və daha etibarlı gələcək vəd edir.

Bütün bunlar həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, İlham Əliyev bütün dünya üzrə ölkə daxilində ən çox səfərlər edən, müxtəlif tədbirlərdə, açılışlarda, bayram mərasimilərində, xatirə günlərində xalqın içində, vətəndaşların yanında olan Liderdir. Onun vaxtının çoxu iş otağında yox, açıq havada, xalqın içində, görüşlərdə keçir. Problemləri vətəndaşın öz dilindən şəxsən dinləyir və həllini təmin edir. İnsanlar da bunu görür, qiymətləndirir və onu Milli Lider kimi qəbul edir.

## Fateh Sərkərdə, Müzəffər Ali Baş Komandan!

Prezident kimi İlham Əliyevin vətən və xalq qarşısında ən böyük xidmətlərindən biri də onun qüdrətli ordu yaratmasıdır. Bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasındadır. Ötən 21 ildə Ali Baş Komandanın səyi ilə ordumuzun maddi-texniki bazasını inanılmaz dərəcədə möhkəmləndirilib, ordumuz peşəkar kadrlarla zənginləşib. İlham Əliyev hələ Vətən müharibəsindən əvvəl dəfələrlə vurğulayırdı ki, bu ordu düşməni tam darmadağın etməyə və torpaqlarımızı azad etməyə qadirdir. Lakin bunu təcrübədə sübut etmək lazım idi...

Torpaqlarımızın azad olunması ilə başlayan Vətən müharibəsinin ilk günündə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev vurğulamışdı:“Mən Ermənistana dəfələrlə xəbərdarlıq etmişdim. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və torpaqlarımızı azad edir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır”.

Beləliklə, Azərbaycan öz işğal olunmuş ərazilərini hərbi yolla azad etmək üçün hərbi əməliyyatlara başladı. İlk günlərdən işğalçı orduya və Qarabağda yerləşdirilən terrorçu dəstələrə sarsıdıcı zərbələr vuran, düşmənin xeyli canlı qüvvəsini, hərbi infrastrukturunu, texnikasını məhv edən Azərbaycan Ordusu 44 gün ərzində dünyaya sübut etdi ki, o hansı gücə və qüdrətə sahibdir!

Bəli, bu gün Azərbaycan Ordusu çox güclüdür. Lakin güclü ordunun olması heç də hər şey demək deyil. Qələbə üçün bu orduya komandanlıq edən, onu düzgün idarə edən, strategiyasını və taktikasını yüksək peşəkarlıqla müəyyənləşdirən bir sərkərdənin varlığı mütləqdir. Qarabağda Ordumuzun genişmiqyaslı azadetmə əməliyyatları başlayanda bütün xalqımız və bütün dünya həm ordumuzun, həm də onun Ali Baş Komandanının peşəkarlığını gördü.

Artıq bu gün də xalqımız Müzəffər Ali Baş Komandanı, Prezidenti İlham Əliyevin ətrafında sıx yumruq kimi birləşib ümumi düşmənə qarşı müxtəlif cəbhələrdə döyüşür- həm hərb meydanında, həm siyasi-diplomatik, həm informasiya müharibəsində, həm kibermüharibədə və s. Bu reallıq hər prezidentə qismət olası tale də deyil. Məhz bu keyfiyyətlərə malik olduğu üçün xalqımız İlham Əliyevi təkcə Prezident olaraq görmür, daha çox Lider, sərkərdə və ən əsası özünə ən yaxın insan kimi görür və inamla onun arxasınca gedir. Söz yox ki, belə bir xalq və prezident birliyi ilə qarşıda dayanan istənilən sədləri aşmaq, istənilən çətinlikləri ram etmək, istənilən qələbəni əldə etmək mümkündür!

# Yeni il BAZARLIĞI – Süfrənizi neçəyə qura biləcəksiniz?



***Məlumdur ki, artıq yeni ilə sayılı günlər qalıb və bir çox insanlar yavaş-yavaş bayram bazarlığına start verib. Bilirik ki, bu gün bir çox ailələr 31 dekabr günü növbənöv yeməklər bişirmək üçün dəridən- qabıqdan çıxır. Məlum məsələdir ki, insanlar arasında süfrə bolluğu barədə bir rəqabət də var. Bəs, bir gün üçün bu qədər israfçılıq etmək, borca-xərcə düşmək nə dərəcədə doğrudur? Ümumiyyətlə, bir ailəyə yeni il bazarlığı ortalama neçəyə başa gəlir?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Düşünürük ki, bu, hər ailənin təyin etdiyi menyuya görə fərqli qiymətlərdə ola bilər.

Standart bayram süfrəsinə aid olan təamları hesablasaq,



### Paytaxt salatı hazırlamaq üçün:

Yarım kq file - 4 manat
Konservləşdirilmiş yaşıl noxud - 3 manat
Mayonez- 4-5 manat
Turşi xiyar - 3 manat

Hələ bütün inqrediyentləri saymadan cəmi bir salat bizə 20-25 manata başa gəlir.

### Plov hazırlamaq üçün:

Düyü - 5 manat
Şabalıq yarım kilosu 7-8 manat
Toyuq- 7 manat
Ətli olarsa, dana əti 15 -16 manat



Ərik, kişmiş, turşu filan da hesablasaq 40-50 manat da plov hazırlamağa lazımdır.



### Kabab:

Dana basdırma 1 kq -15 manat
Quzu kabab 1 kq -20 manat
Tərəvəz kababı da etsək, 15 manat.

Ümumilikdə 2 kq kabab 50-60 manata başa gəlir.



### Yarpaq dolması:

1 kiloya yaxın quzu əti- 20-21 manat
Yarpaq- bankası 3-4 manat
30 manata yaxın da dolmaya xərcimiz çıxdı.



### Meyvə-tərəvəz:

Xiyar- yarım kq 2 manat
Alma 1-2 manat
Portağal- 1 kq 2 manat
Ananas 5-6 manat
Heyva 2 manat
Mandalin yarım kq -1 manat
Xurma- 1.50-2 manat
Kartof- 1 manat
Soğan 0.80 qəpik
Pomidor 3-4 manat
Badımcan 2 manat
30 manat da meyvə-tərəvəzə sərf etdik.

Bu qənaətə gəlinir ki, minimum süfrə üçün ən azından bizə 400-500 AZN lazımdır.

**İqtisadçı ekspert Akif Nəsirli**:



"Bazarlarda ümumiyyətlə bayram ərəfəsində Azərbaycanda bahalaşmanın getməsi artıq ənənəyə çevrilib. Amma əsas məsələ ənənə deyil. Əsas məsələ ölkə iqtisadiyyatının çox ciddi şəkildə inhisarlaşmasıdır. Yəni, inhisarlaşma deyəndə kiçik sahibkarlardan söhbət getmir. Söhbət iri bazar oyunçularından gedir. Həmin o bazar oyunçularının əsas hissəsi inhisarçıdlr. İnhisarçı o deməkdir ki, sahibkarın rəqibi yoxdur. Sahibkarın rəqibi olmayanda onun üçün qiyməti qaldırmaq iki vur ikidir. Qiyməti qaldıranda bunun heç bir məğlubiyyəti yoxdur, həmişə qələbəsi var. Ona görə də Azərbaycanda hansısa bir səbəbdən, bayram ya digər səbəblərdən hansı məhsulların dövriyyəsi artırsa, yəni satışı çoxalırsa onların qiymətləri bahalaşır.

İnhisarçı bazarla rəqabətli bazarın fərqi elə burasındadır ki, rəqabətli bazarda sahibkar üçün ən çətin iş qiyməti bahalaşdırmaqdır. Hətta bəzi hallarda bir neçə ay sahibkar ziyana işləyir ki, hansı formada mən bu maya dəyərinin artımını kompensasiya edim. Çünki onun qarşısında rəqib var. O həmişə səksəkədədir ki, rəqib onu üstələyə bilər, rəqib onu bazardan çıxarda bilər, üstəgəl əgər onun işləri yaxşı gedirsə bu da həmin o rəqibinin qarşısında üstünlük nümayiş etdirmək istəyir.

Ona görə də rəqabətli bazarda sahibkar daha çox satış əldə edirsə, daha çox dövriyyəyə nail olursa o dərhal əldə etdiyi qazancın bir hissəsini müştəriyə güzəştə gedir ki, o özünün rəqibi qarşısında üstünlüyünü nümayiş etdirsin. Belə olan halda o rəqibinə hansı təsir göstərəcək o başqa məsələdir. Amma ara yerdə müştəri qazanır, qiymətlər aşağı düşür. Ona görə də Azərbaycanın iqtisadiyyatının əsas problemi rəqabət mühitinin olmamasıdır, ölkə iqtisadiyyatının böyük hissəsinin inhisar altında olmasıdır.

Hal-hazırda Yeni il bazarlığı ailənin imkanlarına, ailənin bu bayramı hansı səviyyədə keçirməsindən asılıdır. İndi Azərbaycanda ailə var ki, tutaq ki Yeni ili Londonda qarşılayacaq. Amma ailə də var ki, imkanı çatdığı təamlardan alıb elə öz mənzilində, uzaqbaşı Yeni ili Bulvarda qarşılayacaq. Yəni bunların fərqi var. Azərbaycanda bu iki qisim insanlar var mövcuddur. Ona görə də biz ortalama götürsək bir ailə üçün Yeni ili qarşılamaq, yola salmaq bu ən azı min manata başa gələcək. Çünki ailəyə yəqin ki qonaq gələcək, yəqin ki ailə qonaq gedəcək, özləri süfrə açacaqlar. Yəni bütün bunları hesablayanda ən azı mənzili olan ailəyə indi ola bilsin ki, hansısa ailə Bakı şəhərində kirayədə yaşayır rayondan gəlib. O ola bilsin heç ümumiyyətlə Yeni ili bayram kimi keçirməsin.

Ardı Səh. 11

ARAŞDIRMA

# Yeni il BAZARLIĞI – Süfrənizi neçəyə qura biləcəksiniz?

Əvvəli-Səh-10

Amma Yeni ili bayram kimi keçirən o mənzili olan əhali ki var o əhali qrupu üçün ən azı min manat lazımdır. Hələ bu min manat da tam təmtəraqlı bir süfrə açmağa bəlkə də az olacaqdır".

### Bu qədər yemək niyə israf edilir?

Qlobal miqyas alan qida tullantıları probleminin əsas səbəblərindən biri insanların mənimsədiyi istehlak vərdişləridir. Qida tullantılarının mənfi təsirlərini azaltmağın yollarını öyrənmək və həyata keçirmək planetin gələcəyi üçün son dərəcə vacibdir. Gəlin indi qida tullantılarının nədir, nə üçün baş verir və bunun qarşısını necə almaq olar suallarının cavablarına baxaq.

### Qida tullantıları nədir?

Fərdlərin həyati fəaliyyətini həyata keçirmək üçün istehlak etməli olduqları qida maddələri qidanı təşkil edir. Qida tullantıları istehsal olunan qidaların həddindən artıq istifadəsi və istehlak edilmədən tullantılara getməsi kimi müəyyən edilə bilər. Ərzaq tullantıları tarlalardan tutmuş tədarük zəncirlərinə, satış nöqtələrindən evlərə qədər demək olar ki, hər bir vəziyyətdə istehsal olunan qidalar israf edildikdə, məhv olduqda və ya istehlak edilməz hala gəldikdə baş verir. Hər il dünyada insan istehlakı üçün istehsal olunan qida məhsullarının təxminən üçdə biri, yəni təxminən 1,3 milyard ton qida israf edilir. Xüsusilə meyvələr, tərəvəzlər və taxıllar ən çox israf edilən qida növləridir. Qida tullantıları həm də su, torpaq, enerji, əmək və kapital kimi resursların israfı deməkdir. Bu baxımdan iqlim böhranının səbəblərindən biridir.

### Qida tullantıları niyə baş verir?

Qeyri-adekvat iqtisadi infrastruktur, yanlış kənd təsərrüfatı və ərzaq siyasəti, qeyri-adekvat texnoloji avadanlıq kimi bir çox amil ərzaq tullantılarında müəyyənedici rol oynayır. Məqsəd istehsal məntəqələrindən toplanan qida məhsullarını uyğun şərtlərlə və ən qısa zamanda istehlakçıya çatdırmaqdır. Məhsul yığım texnikasından tutmuş saxlama və soyutma üsullarına, daşınmadan ərzaq məhsullarının əhaliyə proporsional paylanmasına qədər tədarük zəncirinin hər mərhələsində itkilər baş verir.

Qida tullantılarının demək olar ki, yarısı fərdi fəaliyyətlərdən qaynaqlanır. Təsərrüfatdan süfrəyə getdiyi müddətdə miqdarı getdikcə azalan qida, insanların alış və istehlak vərdişləri səbəbindən tullantıların son mərhələsinə çatır. Qida tullantılarını ən çox müəyyən edən faktor insanların qida ehtiyaclarını səhv hesablamalarıdır. Qida tullantılarının əsas mənbəyi fərdlərin öz ehtiyaclarına uyğun ərzaq alış-veriş etmələri, artıq və istifadə olunmayan qidaların xaraba getməsi və ya çürüməyə buraxılmasıdır.

### Qida israfının qarşısını necə ala bilərik?

Qida tullantılarının dünya miqyasında sürətlə artması ilə bu problemin qarşısının alınması məsələsi əhəmiyyət kəsb edir. Qida tullantılarının azaldılmasında tədarük zəncirinin hər mərhələsində daha peşəkar tədbirlərin işlənib hazırlanması vacibdir. Bundan əlavə, fərdlər də həll yollarının tapılmasında mühüm rol oynayırlar. Qida israfının qarşısını almaq üçün aşağıdakıları edə bilərsiniz:

Ehtiyaclarınızı müəyyənləşdirin: Həftəlik ərzaq alışlarınızı yaxından izləyin. Evinizdə qida tullantıları varsa, nəyin və niyə tullantılara getdiyini müşahidə edərək real ehtiyaclarınızı müəyyənləşdirin.

Ağıllı alış-veriş edin: Ərzaq alış-verişinə siyahı ilə getdiyinizə əmin olun, ehtiyacınız olandan artıq almayın və ərzaq alarkən son istifadə tarixlərini yoxlamağı unutmayın.

Ərzaqları düzgün saxlayın: Hansı yeməyi və necə saxlamağınız lazım olduğunu öyrənin. Lazım olduqda dərin dondurucudan istifadə edin.

Qalıqlardan istifadə edin: Qalıqları soyuducuda saxlayın və mümkün qədər tez istehlak edin. Bayat çörəyi və ya təravətini itirmiş meyvələri atmaq əvəzinə, onlara yaradıcı reseptlərlə daha bir şans verməyə çalışın.

Kompost hazırlayın: Əgər uyğun yeriniz varsa, yemək bişirərkən istifadə etdiyiniz inqrediyentlərin qalıqlarını, məsələn, tərəvəz və meyvə qabıqlarını kompost hazırlamaq üçün istifadə edə bilərsiniz.

Sıfır tullantı yanaşmasını araşdırın: Hər növ tullantıların qarşısını almaq üçün sıfır tullantı yanaşmasını mənimsəyin və gündəlik həyatınızda bu şüurla hərəkət etməyə səy göstərin.

Qida tullantıları və onun təsirləri

Qida tullantıları həyatın bir çox sahəsinə mənfi təsir göstərir. Əsas təsirləri aşağıdakı kimi sıralamaq olar:

### Qlobal ərzaq böhranı və aclıq

İstehsal və logistika sahəsində yanacaq itkiləri

Əkin sahələrinin məhsuldarlığının azalması

Elektrik enerjisi və su ehtiyatlarının israf edilməsi

İşçi qüvvəsinin itirilməsi

Kapitalın itirilməsi

*Ayşən Vəli*

# Bu həftə ardıcıl 7 gün iş olacaq



***Xəbər verdiyimiz kimi, Baş nazir Əli Əsədovun imzaladığı Qərara əsasən, Azərbaycanda iş və istirahət günlərinin yerləri dəyişdirilib.***

SİA-nın məlumatına görə, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2024-cü il 30 dekabr və 2025-ci il 3 yanvar iş günləri ilə müvafiq olaraq 2024-cü il 28 və 29 dekabr istirahət günlərinin yerləri dəyişdirilib. Belə ki, 28 və 29 dekabr tarixləri iş günü olduğundan, bu həftə ardıcıl 7 gün iş olacaq. 30-31 dekabr, 1-5 yanvar tarixləri isə qeyri-iş günü olacaq. Qeyd edək ki, Yeni ilin ilk iş günü yanvarın 6-sına təsadüf edəcək.



Mətanət Məmmədova

# Kim kimə?..

***Şəhərimizdəki işıqforsuz piyada keçidlərindən istifadə edənlərdən biri kimi son vaxtadək hər dəfə o xətlərin üzərində dəli bir ağlamaq keçirdi könlümdən. Soruşsaydınız ki, nə üçün? Deyərdim ki, sürücülərə- qayda-qanunlardan, cərimələrdən xəbərsiz sürücülərin gününə ağlamaq istəyirdim. Deyirdim, İlahi-pərvərdigar, bu sürücülər nə vaxt qayda-qanuna riayət edəcəklər. Bu sürücülər, əlbəttə, hamısı deyil, lakin əksəriyyəti bu maşınları nə vaxt adam kimi sürəcəklər.***

İndi isə elə o xətlərin üzərində gülməyə başlamışam. Desəniz ki, nəyə gülürsən? Deyərəm ki, özümə gülürəm. Nə üçün gülürəm, bilirsiniz, keçiddə xəttin üzərində dayanıb sürücüyə yol verdiyim üçün. Onun da məsuliyyətsizcəsinə məni gözlətməsinə gülürəm. Sürücü bir az kənardan görür ki, biz piyada keçidinin düz ortasındayıq, daha da sürətini artırır ki, qarşımızdan keçsin. Biz də qalırıq düz yolun ortasında ki, sürücü bəy, sürücü xanım keçsin, biz sonra yola davam edək.

Məktəbin qarşısı, ictimai yaşayış binasının önü və sair, hara olursa-olsun, bəzi sürücülər üçün heç əhəmiyyəti yoxdur, bizi gözlədib özləri keçəcəklər. Əslində biz onlardan qabağa düşə bilərik. Lakin bu sonuncu keçidimiz olar. Bizi asfalta elə yapışdırarlar ki, tikəmizi yerdən qoparmaq olmaz.

Biz hüquqlarımızı bilirik. Bilirik ki, piyada keçidinə yaxın avtomobili idarə edən sürəti azaltmalı, dayanıb piyadanın keçməsini gözləməlidir.

"Yol hərəkəti haqqında" Qanunun 54-cü maddəsinin I hissəsində də deyilir ki, əgər piyada keçidində nəqliyyat vasitələrinin hərəkəti nizamlayıcı tərəfindən və ya svetofor vasitəsilə nizamlanmırsa, sürücü keçidə yaxınlaşarkən sürəti lazımınca azaltmalıdır ki, yolu keçməyə başlamış piyadaları təhlükəyə məruz qoymasın. Əgər piyada keçidə daxil olmuşdursa və ya daxil olmaqdadırsa, sürücü nəqliyyat vasitəsini dayandırmalı və piyadaya yol verməlidir. Sürücünün piyadaya yol verməli olduğu xüsusi bir hal isə adı çəkilən qanunun 75-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulur: sağa və ya sola dönən sürücü dönəcəyi yolun hərəkət hissəsini keçməkdə olan piyadalara yol verməlidir. Bu normadan göründüyü kimi, yolayrıcında dönən sürücü hətta döndüyü yolda piyada keçidi olmasa da, piyadaya yol verməlidir.

"İnzibati Xətalar Məcəlləsi"nin 330-cu maddəsinə əsasən isə həm nizamlanmayan piyada keçidlərində, həm də sağa və sola dönən zaman piyadaya yol verilməməsi 50 manat cərimə olaraq qiymətləndirilir.

Bu qaydalardan və cərimələrdən piyadaların xəbərsiz olanı olar ki, sürücülər deyillər. Bəs belə isə nə üçün bilmək istəmirlər ki, kim kimi gözləməli, kim kimə yol verməlidir? Əksinə, piyada keçidinin ortasında maşını üzərimizə sürür, əsla dayanmaq fikirləri yoxdur. Və yaxud da ki, "qarşıdan qəflətən adam çıxar" fikrini ağıllarına belə gətirmirlər?

Sürücülər bu barədə düşünmədikcə, biz hələ ağ xətt üzərində çox qara düşüncələrə dalacaq, ya ağlayacaq, ya da güləcəyik. Öz yolumuzda sürücülərə yol verməyimiz çox gülməli deyilmi?..

# Qarabağın tacı Şuşa növbəti karvanını qarşıladı





## *49 ailə olmaqla, 191 nəfər Şuşa sakini doğma yurduna qovuşdu*

***Hərb meydanında sözünü deyən Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Önəmli vəzifələrdən biri olan Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi olduğunu çıxışlarının birində bildirən Prezident İlham Əliyev görülən işlərin sürətlə aparılmasını tarixdə görünməmiş bir hadisə olduğunu bildirib: ” Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq”.***

Zəfərdən dörd il zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Bu gün işğaldan azad olunan ərazilərimiz abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. ”Bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü, - 40 tunel və 90 körpü, - inşa edilir. Yəni, bu, sadəcə olaraq işin miqyasını göstərir, bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında açılacaq. Yəni, geniş quruculuq işləri görüləcək. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək” – deyə dövlət başçımız bildirib.

### ”BÜTÜN BUNLARA NAİL OLMAQ ÜÇÜN İQTİSADİYYATIMIZ İNKİŞAF ETMƏLİDİR”

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yollarının yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətinin məntiqi nəticəsidir. İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir. ”Bütün bunlara nail olmaq üçün iqtisadiyyatımız inkişaf etməlidir” - deyən Prezident bildirib.

### ŞUŞAYA - ZƏFƏR YOLU

Əsirlikdən qurtulmuş Qarabağın tacı olan Şuşa bu gün ideoloji, ictimai-siyasi tədbirlərin mərkəzinə çevrilərək yeni bir dövrünə qədəm qoyub: abadlıq-quruculuq dövrünə.




Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərində tarixi və dini abidələr, muzeylər planlı şəkildə bərpa olunur və yeni yaşayış yerərinin təməli qoyulur, eləcə də təmir və bərpadan sonra istifadəyə verilir. Şuşada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, Şuşa yenidən dirçəlir və yeni inkişaf, abadlıq və quruculuq dövrünə qədəm qoyub. Artıq bir çox işğaldan azad olunan ərazilərimiz Füzuli, Laçın kimi Şuşamızda ilk sakinlərini qoynuna alır. Otuz iki ildən sonra doğma Şuşaya qayıdan əzəli sakinlər ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla 88 nəfər köçürüldü. Bu artıq davamlı xarakter alıb. Daha 49 ailə olmaqla, 191 nəfər Şuşa sakini doğma yurduna qovuşdu. Şuşaya daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilib. Hzırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra Şuşada quruculuq işlərinə start verildi. Füzuli şəhərindən Şuşaya qısa müddət ərzində Zəfər yolu çəkildi və indi magistral avtomobil yolun çəkilməsi davam edir. Cənab Prezident verdiyi mesaja əsasən, yeddi tuneli, doqquz viaduku, bir çox körpüləri olan dördzolaqlı gözəl bir yol çəkilir. Vaqifin məqbərəsi yenidən quruldu, onun əzəli görkəmi qaytarıldı. Yuxarı Gövhər Ağa məscidi, daha sonra Saatlı məscidi bərpa olundu. Mamayı məscidinin bərpadan sonra açılışı oldu. Çöl Qala məscidində artıq bərpa işləri başlanılıb. Görülən işlər sırasında Mehmandarov məscidi və Mehmandarovun evi bərpa edilib. Bu gün artıq Şuşada dörd mehmanxana fəaliyyət göstərir. Beşulduzlu Şuşa mehmanxanası isə Şuşanın müasir görkəmini özündə əks etdirir.

### ”BİZ ÖZ HAQQIMIZI DANIŞIQLAR YOLU İLƏ YOX, KİMİNSƏ GÜZƏŞTİ HESABINA YOX, DÖYÜŞ MEYDANINDA BƏRPA ETDİK”

Burada iyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizin iqtisadi qüdrətinin artması, dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Ölkəmizin, iqtisadiyyatımızın gücləndiririlməsi, ordu quruculuğunun moderinləşməsi, güclənməsi, vətəpərvər ruhlu gənclərin yetişməsi zəfər tariximiz yaşamağa istiqamətlənmiş amillər sırasında idi. ”Azərbaycan xalqı elə bir qəhrəmanlıq, elə bir fədakarlıq göstərmişdir ki, bu gün bütün dünyada Azərbaycan oğulları haqqında danışırlar və bizim xalqımıza hörmət edirlər. Çünki biz öz haqqımızı danışıqlar yolu ilə yox, kiminsə güzəşti hesabına yox, döyüş meydanında bərpa etdik, şəhərlərimizi, kəndlərimizi azad etdik, qan tökdük, şəhidlər verdik” – deyən Prezident bütün Azərbaycan xalqının 44 gün ərzində bir yumruq kimi birləşdiyin diqqətə çəkib. Mənfur özlərini uydurduqları miflərə inandırmışdılar ki, işğal etdikləri ərazilərimizdə əbədi olaraq yaşayacaqlar. ”44 günlük Vətən müharibəsi şanlı tariximizdir və Azərbaycan xalqı bundan sonra əbədi bu Zəfərlə fəxr edəcək. 44 gün ərzində biz hər gün irəli gedirdik. Ermənistan ordusundan fərqli olaraq bir nəfər də olsun hərbçimiz döyüş meydanını tərk etməmişdir. Onların özlərinin etiraflarına görə 12 minə yaxın fərarisi olmuşdur. Bizim əsgər və zabitlərimiz hər gün irəli gedirdilər və müharibənin birinci günündə əldə olunmuş qələbə - bir neçə kəndin azad edilməsi sonuncu günə qədər davam etdi və 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi düşmənin belini qırdı”- deyə Prezident bildirib.

Səbatsız və təsadüfi insanlar hakimiyyətə gəlməsi, idarəçilikdə xaos, anarxiya Azərbaycanı böhran vəziyyətə gətirib çıxarmışdı. ”Küçələrdən heç bir təhsil almamış, heç bir dövlət işində təcrübəsi olmayan, heç bir biliyə malik olmayan müdafiə nazirləri, dövlət katibləri, parlament sədrləri, prezident vəzifələrinə yiyələndilər və bunun acı nəticəsini Azərbaycan xalqı çəkdi” – deyən Cənab Prezident bildirib ki, Şuşanı müdafiə etməyə söz verən, əks təqdirdə öz başına güllə çaxmağa söz verən o ünsür görəsən indi hansı hisslər yaşayır? Məhz belə insanların hakimiyyətdə olması ərazilərimizin, eləcə də Şuşanın işğal altına düşməsinə səbəb oldu.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqın təkidi ilə 1993-cü ildə hakimiyyətə qayıdışı ölkəmizi düşdüyü ağır vəziyyətdən çıxardı. Köklü islahatların aparılması nəticəsində Azərbaycan yeni bir dövrünə qədəm qoydu. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində görülən işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

Bu gün Ulu Öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. Bu gün Şuşada görülən və görüləcək bütün işlər bunlarla bitmir. Azad Şuşamız müasir bir məkana çevrilir və minlərlə əzəli sakin tezliklə doğma yurda köç edəcəklər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tanrıya açıq məktub- 3-cü hissə

**Əvvəli ötən sayımızda**

Uca Tanrım, üzüm Mübarək Qədəmlərinin altına, bəzi üzüqara bəndələrin Sənin ən böyük enerjin olan Sevgini döndəriblər lap həsənsoxdu dəyirmanına. Orda-burda onun-bunun ana-bacısı ilə min oyundan çıxır, adını da qoyurlar ki, bu sevgidir, nə bilim təbiətin qanunudur.

Üstəlik, söhbət düşəndə özlərini öyüb mən xristianam, nə bilim müsəlmanam kimi sərsəm iddialarda bulunurlar. Bunlara baxanda adamın lap əti tökülür, çünki bu bədbəxtlər qanunsuz cinsi münasibətləri Sənin Yaradılışda ən möhtəşəm enerjin olan Sevgi ilə qarışdırırlar. Həmin bu adamlar o uzunboğaz çəkməyə bənzər ölkədə həyasızlıq və əxlaqsızlıq edən bir pozğunun tonqalda yandırılması tarixini Sevgililər Günü kimi cəmiyyətə soxuşdurublar.




Bunlar bir yana, hələ mən eynicinsli nigahları və cinsi münasibətləri demirəm. Düzü, utanıram bu haqda danışmaga... Son yarım əsrdə çox şey dəyişib Səxavətli Tanrım, mənəvi dəyərlər itmək üzrədir, İnsanlıq yoxa çıxma ərəfəsindədir. İndi evi və pulu olmayan vicdanlı və namuslu oğlana qız vermirlər, indi pulu-vəzifəsi olmayanı adam yerinə qoymurlar, indi "Haqq" deyənin dilini, "Ədalət" deyənin qolunu, "Qanun" deyənin başını kəsirlər. İndi həkimlər can biznesi ilə, mollalar ölü biznesi ilə, müəllimlər qiymət biznesi ilə, siyasətçilər fırıldaqçılıqla, tacirlər xalqın qanını sormaqla, məmurlar rüşvətxorluqla, zəhmətkeş proletariat isə acından ölməmək üçün hamballıqla məşğuldur.

İndi adını həkim qoyan bəzi para dəlləklər Sənin insan orqanizmində yaratdığın ən vacib orqanları amputasiya edib atırlar ki, bu artıqdır. Hələ üstəlik, belə əməliyyatlardan birinin- sonralar dəhşətli nəticələrə gətirib çıxaran sünnət əməliyyatının həyata keçirilməsi şərəfinə şənlik edib bir toy çaldırırlar ki, adam gülməkdən az qalır rəhmətə gedə. Hələ bunu dinlə də bağlamağa çalışırlar, baxmayaraq ki müqəddəs kitablarda belə cinayətlər qadağan edilmişdir.

Belə çıxır ki, bunlar Səndən yaxşı bilir nə artıqdır, nə əksik. Beləliklə də, sağlam adamı şikəst edib qoyurlar bir tərəfə ki, Tanrının səhvini düzəltdik (?). Niyə onların cəzasını vermirsən, yazıq deyilmi xalqın günahsız balaları?

Bunlar bir yana, adlarını dindar qoyan, özlərini Allah əsgəri elan edən bir para qorxunc "roja"lı terrorçular orda-burda bomba partladıb minlərlə günahsız insanı-uşaqları, qadınları, qocaları qətlə yetirəndə Sənin Adını çəkirlər. Lap gülməlidir, guya ki, bu kütləvi qətlləri və qanlı qırğınları bu Şeytanabənzər məxluqlara Sən sifariş vermisən.

Bilirəm ki, çox çərənləyib baş-beynini aparıram, amma başına dönüm ürəyim doludur. And olsun Şöhrətinə və Qüdrətinə ki, mən Sənin və bəndələrinin halına yanıb uzun yazıram, yoxsa mənə nə düşüb ki, gözümü kompüterin monitoru, barmaqlarımı klaviaturanın düymələri şikəst edə-edə bu sicilləməni yazıb qızıl kimi Vaxtını alım. Ona görə də, hələ bir xeylax söhbətim də var ki, oxusan şad olaram.

Bildiyin kimi, artıq bu lənətə gəlmiş planetdə artıq çox adam nəinki Sənin Kitablarını, heç bir-birinin kitablarını da oxumur. Bu səbəbdən də Sənin böyük mələklərindən olan İblis dünyamızda meydan sulayır, aciz və köməksiz bəndələrini yoldan çıxarmaqla məşğul olur. Həm də təkcə yoldan çıxarmağa cəhd etsə nə vardı ki? Səlahiyyətlərini aşaraq insanlara zülüm çəkdirir, öz əlaltıları vasitəsilə mömin və təmiz bəndələrini fəlakətə düçar edir.

Bizim də Səndən başqa heç kimimiz yoxdur. Hara gedək, kimə deyək, indi bir qələtdi eləmişik, gəlib bu dəlixana planetə düşmüşük, çevir bizi o yanındakı tanrıçaların, mələklərin, pərilərin və cinlərin başına qurtar bu müsibətdən. Səni and verirəm 124 min peyğəmbərin əziz ruhuna ki, bu məsələ ilə Özün Şəxsən məşğul ol. Daha Tanrıçalara, Mələklərə filana tapşırma.

Qədim elmi-fəlsəfi və dini kitablarda deyilənə görə, biz kainatın əbədi dövranında milyonlarla həyat yaşayırıq. Hər dəfə də yenidən doğulur və ölürük. Yəni, əslində ölmürük, formamızı, məkanımızı, zamanımızı dəyişirik. Və yeni dünyaya gələndə də, ötən həyatımızda nəyə layiq olmuşuqsa, ona uyğun da həyat alırıq. Bu hesabla əhlikürrün 90 faizi əvvəlki həyatında nəsə ciddi bir qələt qarışdırıb ki, gəlib burda cəhənnəm əzabı çəkir.

Düzdür, biz başa düşürük ki, Sən bu təhlükəli məxluqları- insanları yaratmağına xeyli peşman olmusan. İndi neynəmək olar, sonrakı peşmançılıq fayda verməz deyiblər, biz Sənə oxşadığımız kimi, Sən də bizə oxşayıbsan, hərdən bir səhv də edirsən. Amma biz səhv edəndə Səndən bağışlanmağımızı diləyirik. Maraqlıdır, Sən səhv edəndə neyləyirsən?

Düzdü, yeganə səhvin Sənə çox baha başa gəldi, ilahi dərgahda keçirdiyin prezentasiyada mələklərin çox dedi, Sən az eşitdin. Dedilər ki, bu insan deyilən məxluq Sənin başına oyun açacaq, inanmadın. İndi də qürurunu qıra bilmirsən, dəqiqədən bir Elçi, Kitab-dəftər göndərirsən ki, bəlkə əhliləşdilər. Amma öz aramızda qalsın, biz düzələn zad deyilik. Bizim mayamıza haram, xəyanət, satqınlıq, xəbislik, zorakılıq, paxıllıq qarışıb. Bunu sən də bilirsən, amma Yaradılış kompüterində "İnsan" proyektini seçib "delete" düyməsini basa bilmirsən. Əlin gəlmir... Yəqin olur ki, mərhəmətin ədalətindən güclüdür...

*Ardı var*

***Elçin Bayramlı***

# DİQQƏT: aliment borcu bu hallarda silinə bilər

***Azərbaycan Respublikasının Ali Məhkəməsi aliment borcunun silinməsi barədə tələbə iddia icraatında baxılmasının mümkünlüyü barədə vahid məhkəmə təcrübəsini müəyyən edən qərar qəbul edib. Qurumdan SİA-ya bildirilib ki, işin hallarına görə, iddiaçı 2022-ci ilin avqust, sentyabr, oktyabr, noyabr və dekabr ayları üzrə aliment ödəmək öhdəliyindən azad olunması və həmin aylar üçün yaranmış aliment borcunun silinməsi tələbi ilə məhkəməyə müraciət edib.***







Tələb onunla əsaslandırılıb ki, həmin dövrdə uşaqların maddi ehtiyaclarını təmin edib. Belə olan halda həmin aylar üzrə ona yenidən aliment borcu hesablana bilməz.

Birinci instansiya məhkəməsi iddiaya mahiyyəti üzrə baxaraq qətnamə qəbul etsə də, apellyasiya instansiyası məhkəməsi qətnaməni ləğv edərək işin icraatına Mülki Prosessual Məcəllənin 261.0.1-ci maddəsinə əsasən xitam verib. Apellyasiya instansiyası məhkəməsi qeyd edib ki, aliment borcundan tam və ya qismən azad edilmə barədə tələbə iddia icraatı qaydasında baxılması mümkündür. Lakin bu zaman iddia tələbinin mahiyyətinə diqqət yetirilməli və nəzərdə saxlanılmalıdır ki, qanunvericiliyin tələblərinə görə aliment borcunun silinməsi ilə bağlı tələb yalnız iddiaçının bu borcun şəxsin xəstəliyi, maddi vəziyyəti və ya digər üzrlü səbəblərə görə ödəmək iqtidarında olmaması ilə bağlı verilmiş olsun. Hazırkı iddia tələbində isə iddiaçı borcun olmadığını bildirir, icra məmuru tərəfindən borcun hesablanması ilə razılaşmır, borcun silinməsi ilə bağlı tələbinin əsasını hansısa xəstəliyi və ya digər üzrlü səbəbinin nəzərə alınması təşkil etmir.

Apellyasiya məhkəməsinin mövqeyinə görə, iddiaçı 12 avqust – 20 dekabr 2022-ci il tarixləri aralığında övladı və ailəsi üçün kifayət qədər xərc çəkdiyini bildirərək həmin dövrləri əhatə edən borcun silinməsi ilə bağlı icra sənədinin icrasının həvalə olunduğu icra məmuruna müraciət etməli, sübutlarını ona təqdim etməli və qeyd edilən mübahisə məhz icra qaydasında öz həllini tapmalıdır. Əgər iddiaçı icra məmuru tərəfindən yenə də aliment üzrə həmin dövrü əhatə edən borcun müəyyən edilməsi ilə razılaşmazsa, bu zaman qanunvericiliklə müəyyən edilmiş qaydada icra məmurunun hərəkətlərindən (hərəkətsizliyindən) şikayət ərizəsi ilə müraciət etmək hüququ vardır.

Ali Məhkəmə də hesab edib ki, apellyasiya instansiyası məhkəməsinin mövqeyi və iş üzrə gəldiyi nəticə qanuni və əsaslıdır.

Belə ki, Ailə Məcəlləsinin 106.5-ci maddəsinə görə, icra məmuru tərəfindən aliment üzrə borcun müəyyən edilməsi ilə razılaşmayan tərəflərdən hər biri onun hərəkətlərindən mülki prosessual qanunvericiliklə müəyyən olunmuş qaydada şikayət edə bilər. İddia ərizəsindən görünür ki, aliment borcunun silinməsi tələbinin əsasında onun üzrlü səbəblərdən icra edilməməsi ilə bağlı dəlillər dayanmır.

Tələb müəyyən olunan borc məbləğindən aliment öhdəliklərinin faktiki olaraq yerinə yetirilməsi ilə əlaqədar 2022-ci ilin avqust - dekabr aylarına hesablanan məbləğin silinməli olması ilə əsaslandırılır. Bu barədə sübutlar təqdim edilməsinə baxmayaraq icra məmuru tərəfindən müəyyənləşdirilən aliment borcunun məbləği ilə razılaşmayan borclu icra məmurunun hərəkətlərindən məhkəməyə şikayət verə bilər. Qanunda bu qaydada şikayət vermək imkanının nəzərdə tutulması mübahisəli məsələyə iddia icraatı qaydasında baxılmasını istisna edir.

Mülki Prosessual Məcəllənin 261.0.1-ci maddəsinə əsasən, iş məhkəmədə və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı deyildirsə, hakim iş üzrə icraata xitam verir.

# Dağıdıcı müxalifətin sonu görünür

***Dağıdıcı müxalifət yanlış və səhv siyasətinə görə ardıcıl olaraq cəmiyyət tərəfindən tənbeh edilsə və qınaq obyektinə çevrilsə nəticəsi olmayır. Çünki müstəqil deyillər, hərəsi bir qüvvəyə, mərkəzə bağlıdırlar. Dağıdıcı müxalifətin əsas işbazları olan AXCP və Milli Şura rəhbərliyi xaricdən verilən tezisləri dilə gətirir və ya status şəklində sosial şəbəkələrdə paylaşırlar.***







Bu zaman anlamırlar ki, yanlış fikirləri ilə özlərini rüsvay etməklə yanaşı, ölkənin də imicinə vurmuş olurlar. Ancaq görünən ondan ibarətdir ki, AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli və onlara trolluq edən Fuad Qəhrəmanlı, Gültəkin Hacıbəyli, Seymur Həzi və digərləri ictimai tənbehdən və qınaqdan nəticə çıxartmırlar. Hər gün ötən günə nisbətən daha geniş formada özlərini rüsvay edən "siyasi təhlillər" aparır və "siyasi proqnozlarla" çıxış edirlər. Yadıma bu məqamda AXC-Müsavat hakimiyyəti dönəmində xarici işlər naziri olmuş Tofiq Qasımovun yazdığı bir ifadə düşdü: ""Müxalifətçilik yaxşıdır, nə istəyirsən danışırsan, deyirsən və heç kim də sənə irad bildirmir. İqtidarda olarkən isə hər bir sözünə və cümlənə fikir verməlisən, məsuliyyətli olmalısan". Əli Kərimli, Cəmil Həsənli və onların trolları müxalifət də olduqlarından ağıllarına deyil, ağızlarına gələnləri danışırlar. Gah Rusiyanı ittiham edir, gah Asiya ölkələrini qınayırlar, müəyyən hallarda isə müsəlman ölkələrinin bostanına daş atırlar. Bu hal da düşünmürlər ki, bu cür yersiz və ağılsız hərəkətləri ilə Azərbaycanın dövlət imicinə kölgə salırlar. Ermənistan mətbuatı, sosial şəbəkə istifadəçiləri onların fikirlərini əsas gətirərək Azərbaycan xalqına və dövlətinə qarşı ittiham irəli sürülür. Bir dəfə də olsun sözügedən ünsürlər ABŞ-a və ya Avropaya qarşı tənqidi fikirlər səsləndirmirlər. Əksinə, müstəqil media mənsubları və ya politoloqlar ABŞ-ı və Avropanı, xüsusilə də Avropa İttifaqını tənqid edərkən sanki başlarına daş, qarınlarına azar dolur. Başlayırlar xor dərnəyinin cükküldəyən üzvləri kimi ağız-ağıza verib Avropa İttifaqının qərəzli fəaliyyətini tənqid edənləri təhqir etməyə.

### Əli Kərimli simasını qorumağı bacarmadı

AXCP sədri Əli Kərimli bütün günü nəzarətsiz zona hesab olunan sosial şəbəkələrdə veyillənir. Yazdığı statuslar, paylaşdığı videolar milli və dövlətçilik maraqlarına qarşı yönəlib. O gün də yazdığı statusunda ağalarına xoş gəlmək üçün yazır: "Biz Avropadan uzaqlaşdıqca, Ermənistanın dostları artacaq. Bizim Avropa ilə döyüşməyimiz Ermənistanın müttəfiqlərini çoxaldacaq. Anti-Avropa siyasəti onsuz da bərbad gündə olan iqtisadiyyatımıza güclü zərbə vuracaq. Azərbaycanın maddi yardım, sərmayə, kredit, texnologiya əldə etmək imkanları məhdudlaşacaq. Avropadan imtina edib, Mərkəzi Asiyalaşmaq siyasəti davam etdikcə, sadə azərbaycanlının Avropaya vizasız gediş-gəliş arzusu arzu olaraq qalacaq, repressiyalar davam edəcək, məmur özbaşınalığı, hüquqsuzluq və yoxsulluq artacaq. Xalqımız fərqində olmalıdır: rejimin bu anti-Avropa siyasətindən itirən təəssüf ki, biz azərbaycanlılar olacaq". Bir sözlə, Ə.Kərimli bütün varlığı ilə Avropa İttifaqının təmsilçisi və tərəfkeşi rolunda çıxış etdiyini nümayiş etdirir. Lakin bir dəfə də olsun Avropa İttifaqının Azərbaycanla bağlı qəbul etdiyi ermənipərəst qətnamələrinə etirazını bildirməyib. Sual etməyib ki, nədən Avropa İttifaqı Ermənistanın Azərbaycanla sərhəd ərazilərinə mülki missiya adı altında agentura şəbəkəsi yerləşdirib? Niyə Avropa İttifaqının rəsmi nümayəndəsi Cozef Borelle "Azərbaycan Ermənistan ərazilərinə hücum etsə, biz seyrçi qalmayacağıq", - deyə sayıqlamasına ən azı narazılığını bildirməyib? Susub, danışmayıb, ona görə ki, maliyyə yardımları məhz Avropanın qaranlıq dairələrindən gəlir. Xırda yanlışlıq həmin qrantların kəsilməsi ilə nəticələnər ki, bu da onun siyasi varlığının sonu ola bilər.

### Trollar yeni imtiyaz və pul tələb edirlər

Ə.Kərimli nə deyirsə trollar da tutuquşu kimi onun dediklərini səsləndirirlər, statuslar paylaşırlar. Hansı mənəviyyata və əxlaqa xidmət etdiklərini heç özləri də düz-əməlli bilməyən Fuad Qəhrəmanlı, İlham Hüseynli, Seymur Həzi və digərləri hər gün çərənləyirlər, deyirlər ki, Rusiya pisdir, bəzi müsəlman ölkələri yaxşı müsəlman deyillər. Yenə də ABŞ və Avropanın tərifi göylərə qaldırılır. Görün AXCP-nin baş trolu İlham Hüseyn nə deyir: "Hər gün Qərbi söyənlərin övladları Avropada, ABŞ-da təhsil alır, bəzilərinin övladları vətəndaşlıq da alıb, özlərinin istirahətləri, müalicələri Qərbdədir, Qərb ölkələrinə investisiya yatırırlar və s". Birincisi, bu məxluq anlamır ki, dünya yaranandan bu günə qədər insanlar daha ecazkar və mənzərəli, nisbətən sakit guşə axtarışındadır və arzu etdiyi məkanı aşkar edincə orada yaşamağa üstünlük verir". Yalnız azərbaycanlılar Avropaya, ABŞ-a getmirlər, eyni zamanda sözügedən ölkələrdən də Azərbaycana işləməyə və yaşamağa gələnlər var. Statistikaya əsasən demək olar ki, bu gün ABŞ-ın və Avropanın 350 minə yaxın vətəndaşı Azərbaycanda işləyir və yaşayır. Rusiyadan və keçmiş ittifaq respublikalarında da ölkəmizə daimi yaşamağa və işləməyə gələnlərin sayı az deyil. Ərəb ölkələrindən də Bakımıza və regionlarımıza turist olaraq səfər edənlərin sayı kifayət qədərdir. Həm də müsəlmanlar Azərbaycanın sakit və sabit ölkə olduğunu nəzərə aldıqlarından burada qalıb yaşamağa daha çox üstünlük verirlər. Bu baxımdan insanların bir yerdən digər yerə köç etməsi heç də təəccüblü görünməməlidir. Bunu İ.Hüseyn anlamırsa, deməli, o, Avropanın qaranlıq dairələrinin agentidir. Agenti isə çox ciddi cəza gözləyir. Yəni qanunvericiliklə başqa ölkələrə agentlik edənlər cinayət məsuliyyətinə cəlb edilir və alınlarına "satqın", "xəyanətkar" damğası vurulmaqla uzun müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edilirlər. İ.Hüseyn agent deyilsə və düşünürsə ki, haqqında formalaşan rəy yanlışdır, o zaman ortaya sübut və dəlillər qoymalıdır. Heç şübhəsiz ki, İ.Hüseyn torbalı olduğundan ortaya heç bir sübut qoya bilməyəcək. Bu isə onun haqlı ittihamlara məruz qalacağından xəbər verir. Sonda isə tarixin zibilliyinə atılacağı şübhəsizdir.

***İLHAM ƏLİYEV***

---

# Hansı çörək daha faydalıdır? - SEÇİM AÇIQLANDI

***"Çörək gündəlik qida rasionumuzda əhəmiyyətli yer tutur və bir çox mədəniyyətlərdə əsas qida məhsulu kimi qəbul edilir. Amma bu qida məhsulunun faydası onun tərkibindən və istehsal metodundan asılı olaraq dəyişir.***

İnsanlar arasında ən çox verilən suallardan biri də məhz "Hansı çörək daha faydalıdır?" sualıdır. Bu suala cavab vermək üçün müxtəlif çörək növlərini, onların tərkibini və sağlamlığa təsirlərini daha geniş araşdırmalıyıq". SİA xəbər verir ki, qida üzrə mütəxəssis Asim Vəliyev deyib.

Asim Vəliyev sözlərinə belə davam edib: "Çörək əsas karbohidrat mənbəyidir və orqanizmin enerji ilə təmin olunmasında mühüm rol oynayır. Tərkibindəki vitaminlər, minerallar və liflər sağlamlığımız üçün zəruridir. Amma çörəyin tərkibində olan maddələr onun hansı dərəcədə faydalı və ya zərərli olduğunu müəyyən edir. Məsələn, tam taxıl çörəkləri daha çox lif və mikroelementlərlə zəngindir, halbuki ağ çörək istehsalı zamanı bu qidalandırıcı maddələrin əksəriyyəti itir.

Tam taxıl çörəyi istehsal zamanı bütün taxıl dənələrinin - kəpək, endosperm və rüşeymin saxlanılması ilə hazırlanır. Bu səbəbdən o çox faydalı bir qida məhsulu hesab edilir. Liflər bağırsaq mikroflorasını yaxşılaşdırır, həzmi sürətləndirir və qəbizliyin qarşısını alır. Tərkibində maqnezium, sink, dəmir, E və B qrup vitaminləri var.

Tam taxıl çörəyi qan şəkərini stabil saxlayır və artıq yemək arzusunu azaldır. Tam taxıl çörəyi diabet, ürək-damar xəstəlikləri və artıq çəki problemlərindən əziyyət çəkən insanlar üçün tövsiyə edilir. Çovdar çörəyi həm dadı, həm də sağlamlıq faydaları ilə seçilir. Onun tərkibi nisbə-



tən az qlüten ehtiva etdiyi üçün həzm sistemi üçün daha uyğundur. Həzm problemi olan insanlar üçün faydalı seçim olar. İnsulin müqavimətini azaldır və enerji səviyyəsini uzun müddət qoruyur. Çovdar çörəyi antioksidantlar və iltihabəleyhinə təsirləri ilə ürək-damar sistemini qoruyur. Kəpəkli çörək tərkibində yüksək miqdarda lif olan başqa bir sağlam seçimdir. O, bağırsaq fəaliyyəti üçün müsbət təsir göstərir. Bağırsaq hərəkətliliyini artıraraq qəbizliyin qarşısını alır. Daha uzun müddət toxluq hissi yaratdığı üçün artıq yeməkdən çəkinməyə kömək edir.

Çölyak xəstəliyi və ya qlütendən həssaslıq problemi olan insanlar üçün qarabaşaq, düyü, badam unu kimi alternativlərdən hazırlanan çörəklər mövcuddur. Bu çörəklər digər çörək növlərinə nisbətən daha spesifik qida ehtiyaclarını qarşılayır. Ənənəvi olaraq ən çox istehlak edilən ağ çörək tərkibindəki faydalı maddələrin böyük hissəsi emal prosesində itirildiyi üçün qida dəyəri baxımından zəifdir. Ağ çörəyin istehlakı:

- Qan şəkərini tez yüksəldərək ani aclıq hissi yaradır.
- Çəkidə artıma və metabolik xəstəliklərə səbəb ola bilər.
- Tərkibində əlavə şəkər və ya konservantlar varsa, bu, əlavə sağlamlıq problemlərinə gətirib çıxara bilər.

Çörək alarkən onun tərkibini mütləq yoxlamalıyıq. Təbii maddələrdən hazırlanmış və əlavə şəkərdən azad olan çörəklərə üstünlük versək yaxşı olar.



MÜTƏXƏSSİS FİKRİ

Tünd rəngli və yüngül kobud teksturalı çörəklər adətən daha çox lif və mineral ehtiva edir. Çörəyin təzə və keyfiyyətli olması üçün düzgün saxlanmasına əmin olmalıyıq. Əgər tam sağlam qidalanmaya keçid etmək istəyiriksə, çörəyi özümüz evdə hazırlamaq yaxşı seçim ola bilər. Ev şəraitində tam taxıl unu və ya qarabaşaq unundan çörək bişirərək daha faydalı və təbii bir qida əldə edə bilərik. Ən faydalı çörək növü ehtiyaclarımızdan və sağlamlıq halımızdan asılı olaraq dəyişə bilər. Amma ümumilikdə tam taxıl, çovdar və kəpəkli çörəklər sağlam qidalanma üçün ən yaxşı seçimdir. Çörək seçərkən keyfiyyətə, tərkibə və təbii mənbələrə üstünlük vermək vacibdir. Sağlam həyat tərzi üçün balanslı qidalanmanı təmin etmək və çörəyi düzgün miqdarda istehlak etməliyik".

***Ayşən Vəli***

***İran uranın zənginləşdirilməsini 60%-ə qədər sürətləndirib ki, bu da nüvə bombası səviyyəsinə yaxındır. Bu barədə MAQATE rəhbəri Rafael Qrossi "Röyters" agentliyinə bildirib. MAQATE-nin son rüblük hesabatına görə, hətta proses indiki səviyyədə dayandırılsa belə, İran artq 4 nüvə bombası istehsal etmək üçün kifayət edəcək uran zənginləşdirə bilib. Burada risklər nə dərəcədə güclüdür? Tehranın atom bombalarına sahib olması faktı ilə üzləşdikdə region hansı vəziyyətdə qala bilər? Bu barədə xarici ekspertlər Caliber.Az-la fikirlərini bölüşüblər. Rəyləri oxucularımıza təqdim edirik.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# İran 4 atom bombası yaratmağa kifayət edəcək qədər uran zənginləşdirib

## SENSASİON AÇIQLAMA

Qüdsdəki İvrit Universitetinin Asiya və Afrika İnstitutundan iranlı ekspert doktor Vladimir Mesamed qeyd edir ki, hazırda İranın nüvə proqramı ilə bağlı bütün Yaxın Şərq üçün təhlükə elementi kimi qeyri-müəyyən vəziyyət yaranıb.




"Bir tərəfdən, iki həftə əvvəl MAQATE-nin Direktorlar Şurasının iclası oldu və orada Avropa üçlüyünün, yəni İngiltərə, Fransa və Almaniyanın təşəbbüsü ilə kifayət qədər sərt qərar qəbul edildi. Və bu bəyanatda İrana hədə-qorxu gəlindi ki, uranı zənginləşdirməyə davam etməməlidir, çünki o, uranı artıq 60%-ə qədər zənginləşdirib, hətta ondan da yüksək səviyyədədir ki, buna müəyyən sübutlar var. Və bunu nəzərdən qaçırmağın mənası yoxdur, çünki MAQATE daha sərt qərarlar qəbul edə bilər. Digər tərəfdən, Pezeşkianın hakimiyyətə gəlməsi və hələ də imzalanmamış yeni JCPOA ("nüvə müqaviləsi") var.



Ona görə də, əslində, son günlər bu istiqamətdə çox maraqlı hadisələr baş verib, xüsusən də iki yüksək rütbəli İran diplomatının (xarici işlər nazirinin müavini Kazım Qəribabadi və Məcid Taxt-Rəvançi) Aİ-nin Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Komissarının müavini Enrike Mora ilə görüşü barədə danışmaq olar.

Mora Aİ adından İranın son iki səfəri, görüşü Aİ-nin İranla bağlı rəsmi siyasətinə uyğundur. Yəni, ümumiyyətlə, Aİ onun inaqurasiya üçün Tehrana səfərini blokun əsas dəyərlərinə zidd hesab etsə də, əslində bu, Brüsselin rəsmi siyasətinə uyğun gəlir. İrana qarşı siyasət bu şəkildə ifadə edilir: kritik qarşılıqlı əlaqə adlanır. Yəni bir tərəfdən açıq ünsiyyət kanallarından istifadə edir, digər tərəfdən də sanksiyalar tətbiq edə bilirlər.

İ.Qəribabadi Cenevrədə Enrike Mora ilə görüşün nəticələrinə əsasən diplomatik danışıqlara başlanılmasına qərar verildiyini bildirib. Mətbuata açıqlamasında o, son ikitərəfli, regional və qlobal hadisələrin kompleksini nəzərdən keçirmək və qiymətləndirmək imkanı olduğunu bildirib. Amma nəzərə almalıyıq ki, İran Xarici İşlər Nazirliyinin rəhbəri Abbas Arakçi bu görüşü başqa cür dəyərləndirib. O, JCPOA istiqamətində irəliləyişin əslində minimal olduğunu söyləyib. Arakçi bəzən çox sərt mövqelər tutsa da, digər tərəfdən bir növ liberal olduğunu göstərməyə çalışır. Belə ki, onun prezidentinin andiçmə mərasimində iştirak edib. Və daha doğrusu, onun fikrincə, iranlı və avropalı müzakirəçilər arasında Cenevrə görüşü beyin həmləsi sessiyasıdır və indiki vəziyyətdən həqiqətən çıxış yolunun olub-olmadığını, yəni danışıqlara keçməyin mümkün olub-olmadığını göstərməlidir.

Və bu baxımdan demək lazımdır ki, Qərb də bütün bunlara kifayət qədər maraqlı baxır. MAQATE-nin Direktorlar Şurasının iclasından əvvəl Qrossi Tehranda olub və orada müxtəlif vədlər verib. Bəs reallıqda iranlılar MAQATE-nin qərarına cavab olaraq nə etdilər? Onlar deyirdilər ki, yeni sentrifuqalardan istifadə edəcəklər və nüvə yükü yığacaqlar",- elmlər doktoru deyir. Onun fikrincə, İranda bunu ona görə deyirlər ki, danışıqların başlanması Qərb üçün məcburi tədbirlərlə bağlıdır.



"Yəni, bu o deməkdir ki, onlar başa düşürlər: Suriya böhranının kəskin mərhələsi var və buna görə də onların "Kayhan" qəzeti bu yaxınlarda yazıb ki, İran istiqamətində Avropa təmaslarına Suriyada son həftə baş verən hadisələrlə yanaşı baxmaq lazımdır. Əsəd rejimi tamamilə çökdü. Yeni hücum planlaşdırmaq, Qərbin suriyalı üsyançılara kömək etdiyi hər şeylə onlar sionistlərə kömək etdiklərini düşünürlər və buna görə də Qərbə onlara kömək edən siyasi qüvvə kimi baxırlar, deyirlər ki, Qərb həmişə ikiüzlüdür. Üstəlik, ABŞ-da İranın uranın zənginləşdirilməsini davam etdirməsi həm də MAQATE ilə əməkdaşlıqdan fərqli olaraq, gərginliyin artması yolunun davamı kimi qiymətləndirilib.

Bu danışıqların perspektivlərinə gəlincə, iranlı analitik Məhəmməd Cavad Camali Nobandan Qani bu məsələ ilə bağlı danışaraq bildirib ki, tərəflərin uğur qazanacağına əmin olmaq mümkün deyil, tələsik və vaxtından əvvəl mühakimə yürütmək olmaz, çünki danışıqlar çox uzun prosesdir. Həqiqətən, JCPOA-ya səbəb olan danışıqları xatırlasaq, onlar 12 il davam etdi. O qeyd edir ki, regionda vəziyyət qeyri-sabitləşib və buna görə də nəsə etmək lazımdır. Ona görə də dialoqda fasilələr olmamalıdır.

Digər tərəfdən, yadda saxlamalıyıq ki, İran həqiqətən nüvə bombasına can atır, bunu bu yaxınlarda az qala rəsmi şəkildə bəyan edib, bu, xüsusilə, nüvə silahı yaradılması qadağasından bəhs edən fətvanın zəruri olub-olmaması ilə bağlı müzakirələrdən aydın görünür. İranda uzun müddətdir ki, bu, zəruri prosesdir, təkcə nüvə silahı istehsal etmək və yığmaq deyil, həm də ondan istifadədən söhbət gedir. Bu yaxınlarda İran Məclisinin deputatlarından bu barədə açıq məktub gəldi, çoxlu çıxışlar oldu, bəlkə də bu rəsmi çəkiyə sahib olacaq.

Amma iranlılar başqa bir şeyi də bilirlər: yeni dövr gəlir, Tramp hakimiyyətə gəlir və ondan çəkinirlər və buna görə də, yəqin ki, qəfil hərəkət etməyəcəklər. Amma onların qəfil hərəkətlərə ehtiyacı yoxdur, sakitcə nüvə ehtiyatı toplamaqda davam edirlər, bu, dünyanın diqqət obyektinə çevrilmir, çünki, sözün əsl mənasında, orada MAQATE-nin müşahidəçiləri yoxdur, çünki onlar çoxdan bu imkandan məhrum olublar. MAQATE Direktorlar Şurasının son qərarından belə bir nəticə çıxmır ki, onlara bu hüquq veriləcək.

Ona görə də Yaxın Şərqdə çox kəskin hərəkətlər mümkündür. Ancaq demək istəyirəm ki, İran yaxın gələcəkdə nüvə bombasına



sahib olsa belə (İsrail bu prosesi daim nəzarətdə saxlayır), bu, sadəcə olaraq, çəkindirmə elementi olacaq, iranlılar da bunu deyirlər. Digər sual isə odur ki, Tehrana etibar etmək olarmı? Düşünürəm ki, yox",- deyə Mesamed yekunlaşdırır.

İranlı tədqiqatçı və jurnalist Maykl Borodkin bildirib ki, İran Livandakı Hizbullahdan tutmuş Yəmənə qədər öz etibarlı qüvvələri və peyklərinin köməyi ilə uzaq sərhədlərdə müdafiə sistemi qurmaqla paralel olaraq uzun müddətdir nüvə proqramı hazırlayır.

"Bölgədə baş verən son təlatümlü hadisələr bu müdafiə sistemini iflasa gətirib çıxarıb. Ona görə də rejimin öz təhlükəsizliyinin əsas təminatı hesab etdiyi ikinci vasitəni- nüvə proqramını hazırlamaq məntiqli görünür.

Suriyada Bəşər Əsəd rejiminin süqutu İran üçün onların uzun illər qurduqları zəncirin kritik halqasını itirməsi deməkdir. Livan Hizbullahı artıq İsraillə müharibə nəticəsində xeyli zəifləyib və indi onun mövcudluğu sual altında olacaq, çünki Suriyaya nəzarət olmadan İran rejimi çətin ki, öz döyüş potensialını bərpa edə bilsin",- deyə tədqiqatçı hesab edir. Onun fikrincə, bütün bunlar İran rejimini o qədər qorxuda bilər ki, onlar nüvə silahı üzərində işi mümkün qədər tez başa çatdırmağa çalışacaqlar.

"İranın nüvə dövlətinə çevrilməsi Yaxın Şərq regionunda dərhal silahlanma yarışı deməkdir. Tehrandan sonra nüvə silahlarını ilk mərhələdə Türkiyə, Səudiyyə Ərəbistanı və Misir, daha sonra isə ola bilsin ki, digər ölkələr yaradacaq. Belə bir ssenari, əlbəttə ki, Yaxın Şərqdə ciddi sabitliyin pozulmasına, hətta yeni müharibələrə gətirib çıxaracaq",- Borodkin etiraf edib.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

# SƏS

24 dekabr
2024-cü il


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Elektromobillər, yoxsa ənənəvi avtomobillər daha etibarlıdır?



“Elektron nəqliyyatlar ekologiyanın dostudur”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Aslan Əsədov deyib. O bildirib ki, dünyada elektron nəqliyyata maraq çox yüksəkdir: ”Bunun əsas səbəblərindən biri də dünyada baş verən inteqrasiya, müasirləşmə, intervallaşma bu və digər formada nailiyyətdir. Ona görə də bu gün dünya nəqliyyat sistemində müasir işlər davam edir, müasir görüşlər və proqramlaşdırma təminatlarında uğurlu nəticələr əldə olunur. Həmçinin ölkəmizdə də kifayət qədər maraq artıb.

Elektron nəqliyyatın üstünlükləri birinci, yanacağa sərfi, ondan az yanacaq ilə böyük faydalı iş əmsalına malik olmalıdır. Yəni faydalı iş əmsalı daha yüksək olur, daha çevik olur. Onun üçün də bu özəlliklər ona aiddir, əlamətlər ona xasdır. Elektron nəqliyyatların almağa, təbii ki, zavod standartları bir problem yaranmayan ümumi olaraq insanlar üçün problem yaradıcısı olmayan elektron nəqliyyat vasitələri elə də alınmır, onların üstünlükləri yanacağa sərfiyyatı, iş prinsipləridir. Mənfi tərəflərinə gəldikdə isə elə də çox deyil. Əsas da yanacaqla bağlı, yəni bateriya sistemi ilə bağlı müəyyən narazılıqlar ola bilər, lakin bu da ciddi bir şey deyil.

## EKSPERT AÇIQLADI

Bəzi insanlar seçim qarşısında qalır dedikdə, məncə, zavod istehsalı olan nəqliyyat vasitələri üçün seçim necə deyərlər ”yox” cavabı olmamalıdır. Çünki bu sistemlər müasir sistemlərə arxayınlaşır. Sadəcə qiymət fərqi var, sistemlərin bahalı olması insanlar üçün qiymət cəhətdən faydalı olmaya bilər.

Ekologiyaya zərərləri dedikdə isə əksinə ekelogiyanın dostu sayılır. Çünki bu avtomobillər kifayət qədər dözümlü, yanacaq sərfiyyatını az işlədir. Ona görə də, müsbət tərəflərini daha çox qiymətləndirirəm, nəin ki mənfi tərəfləri.

Elektron nəqliyyatın bütün növləri dünyada varsa, təbii ki, bizdə də var. Bu proseslər sürətlə inkişaf etməkdədir. Həmçinin proseslərin simulyasiya edilməsi, sistemə oturulması çox müsbət addımlardan biridir. Düşünürəm ki, bu proseslər gələcəkdə də davam edəcək. Demək olar ki, Azərbaycan dünyanın vahid bir sistemi, hissəsidir. Dünyada nə yeniliklər olursa, Azərbaycana da gəlir və bundan istifadə olunur”.

***X. Piriyeva***

# Sosial şəbəkədə olan trendlər asılılıq yaradır?

*“Sosial şəbəkədə olan trendlər asılılıq yaradır”. Bu sözləri SİA-ya açıqlamasında Ailə və uşaq psixoloqu, təlimçi Aynur İsmayılova deyib. Onun fikirlərinə görə, son zamanlar sosial şəbəkələrin bu qədər geniş inkişaf etməsi, eyni zamanda hər psixologiyaya uyğun insanların müxtəlif video yayımlaması bu bir kolektiv şüuraltıya təsir edən mexanizma olaraq gənclərdə həvəs yaradır.*



## AYDINLIQ GƏTİRİLDİ

Heç bir gəncdə həvəs olmasa belə birbirindən nümunə götürərək cürbəcür videolar yayırlar. Bu videolar təbii ki bəzən neqativ təsirli ola bilər. Həmin bu videolardan da psixologiyası zəif olan insanlar təsirlənir. Məsələn, bir videoda cəmiyyətə qarşı hər hansı bir zorakılıq kimi, fiziki şiddətə meyil göstərən, yaxud trenddə olan eyni hərəkəti təkrarlamaq kimi olsun, belə gənclər bunları təkrarladıqca özləri də fərqinə varmadan sosial şəbəkə asılılığı yaşayırlar.

Sosial şəbəkə asılılığı yaşayan gənclər özünə qapalı, dərdlərini bölüşməyən, sadəcə internet varsa bizdə varıq deyən bir qurtum yaranmasına səbəb olur. Beləliklə real ünsiyyətdən çəkinən, real həyatda yaşamayan ancaq virtual həyatı olan gənclərə çevrilirlər. Belə gənclər də nəinki intihar etməyə meyilli olurlar, eyni zamanda özlüyündə fiziki sağlamlıqlarına ziyan verirlər. Neçəki insanlarla ünsiyyətdə olmurlar, daim evdə vaxt keçirirlər, təbii ki stress və depresiyaya bədənləri alışıq olur. Çünki onlarda bəzi vitaminlər əksikliyi yaranır. Bu gənclər telefonda, sosial şəbəkədə çox vaxt keçirirlər, yuxu pozğunluqları yaşayırlar, bir başa sağlamlıqlarına necə təsir etdiklərinin fərqində deyillər. Hər hansı xəbəri afişa şəklində çox yayırsa, digər gənclərdə fərqində oldu-olmadı nümunə götürürlər. Yəni hər hansı bir psixoloji problemli insan video paylaşırsa, sağlam insanda bəzən bunun çox trendləşməsi nəticəsində ordan nümunə götürüb istədiyini edir”.

***Xeyrənsə***

# Mbappe gələn il üçün hədəflərini açıqladı

“Real”ın hücumçusu Kilian Mbappe 2025-ci il üçün hədəflərini açıqlayıb. AS nəşrinin yazdığına görə, 26 yaşlı forvard çoxlu titullar qazanmaq istədiyini deyib: “Yeni ildə builki oyunumdan daha yaxşısını




etməyi hədəfləmişəm. Çoxlu titullara sahib olmağı arzulayıram. Və əlbəttə ki, ”Real”ın hər oyunundan həzz almağınızı istəyirəm”.

Qeyd edək ki, Mbappe bu yay PSJ-dən ayrıldıqdan sonra azad agent kimi ”Real”a keçib. O, Madrid təmsilçisi ilə bütün turnirlərdə 23 matça çıxıb, 13 qol vurub və 3 qolun ötürməsini verib. Fransalı futbolçu komandanın hücum xəttində kifayət qədər effektiv olmadığına görə tez-tez tənqid edilir.

## BAŞSAĞLIĞI

Sumqayıt Dövlət Dram Teatrının direktoru Samir Şəfiyev, baş rejissor, Xalq artisti Firudin Məhərrəmov və teatrın yaradıcı, inzibati kollektivi, teatrın aktyoru

**Yalçın Üzeyir oğlu Səlimovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə, yaxın qohumlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

* * *

Əməkdar incəsənət xadimi, yazıçı-rejissor Ağalar İdrisoğlu ailə üzvlərilə birlikdə Sumqayıt Dövlət Dram Teatrının aktyoru

**Yalçın Üzeyir oğlu Səlimovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə ailə üzvlərinə , yaxın qohumlarına başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**